

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET № 120 (7375) / Şənbə, 6 iyul 2019-cu il

Dövlət məcburi köçkünlərə çox böyük qayğı, diqqət göstərir

Bax: səh. 2

BAKININ PİRALLAHI RAYONUNDA MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN YENİ YAŞAYIŞ KOMPLEKSİNİN AÇILIŞ MƏRASİMİ OLUB

Azərbaycan ilə Fransa arasında siyasi əlaqələr ən yüksək səviyyədədir

⇨ Bax: səh. 4

Bax: səh. 8 ⇧

"The Jerusalem Post":

Ermənistan-Azərbaycan münaqişəsi: İsrailli jurnalistlər təmas xəttində olublar

Kəngərli rayonunda icbari tibbi sığortanın tətbiqi sahəsində işlər başa çatdırılıb

⇨ Bax: səh. 7

Yeni Azərbaycan Partiyası ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında birgə Fəaliyyət planı imzalandı

⇨ Bax: səh. 6

Bax: səh. 4 ⇧

"Kaspi" liseyi olimpiadadan 6 medalla qayıdıb

Bax: səh. 5 ⇧

ADA Universitetinin Məzun Forumu öz işinə başlayıb

5 "Azəriqaz" "ASAN xidmət" vasitəsilə 154460 istehlakçıya xidmət edib

9 Van Çunqan: Azərbaycan Çinin "Bir kəmər, bir yol" layihəsinin vacib tərəfdaşıdır

16 Yayın ən ciddi problemi: qida zəhərlənmələri

Dövlət məcburi köçkünlərə çox böyük qayğı, diqqət göstərir

Bakının Pirallahı rayonunda məcburi köçkünlər üçün yeni yaşayış kompleksinin açılış mərasimi olub

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər

İyulun 5-də Pirallahı rayonunda 306 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksi istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev görülən işlərlə bağlı məlumat verdi. Bildirildi ki, Pirallahı rayonunda yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış 306 məcburi köçkün ailəsi üçün çoxmərtəbəli binalardan ibarət yeni yaşayış məhəlləsi dövlətimizin başçısının 2011-ci ildə imzaladığı sərəncama əsasən yaradılıb. Sifarişçisi Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu, podratçısı isə "Kristal Abşeron" MTK olan yeni yaşayış məhəlləsinin ötən il başlanan tikinti işləri yüksək keyfiyyətlə başa çatdırılıb. Layihə üzrə doqquzmərtəbəli 3 bina tikilib ki, bunlardan ikisi 72, biri isə 162 mənzillidir. Yaşayış kompleksinə məktəb də daxildir və burada digər zəruri infrastruktur obyektləri tikilib, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görülüb. Kompleks salınarkən elektrik, su, qaz, istilik təchizatı və suvarma sisteminin, rabitə və televiziya şəbəkəsinin qurulmasına xüsusi diqqət göstərilib. Bu, ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 104-cü müasir yaşayış kompleksidir.

Mənzillərdə yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, təmirli mənzillərdən 37-si birotaqlı, 107-si ikiotaqlı, 126-sı üçotaqlı, 36-sı isə dördotaqlıdır. Mənzillərin ümumi sahəsi 24 min kvadratmetrdir. Yeni yaşayış kompleksində hazırda Pirallahı rayonundakı yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri mənzillə təmin olunacaqlar.

Bu istiqamətdə atılan mühüm addımlardan danışarkən Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən tədbirləri də vurğulamaq lazımdır. Artıq Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yaşayış kompleksi inşa edilib. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edilib. Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələri köçürülüb. Sumqayıtdakı 1005 məcburi köçkün ailəsi üçün inşa olunmuş yaşayış binalarının da açılışı olub. Qeyd edək ki, 2007-ci ildə sonuncu çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses nəticəsində qaçqın və məcburi köçkünlər üçün indiyədək 3,5 milyon kvadratmetr yaşayış sahəsi olan müasir qəsəbələr və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb. 2018-ci ilin sonunadək 58 min 223 ailə və ya 300 minə yaxın qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb. Təkcə ötən il 5923 məcburi köçkün ailəsi yeni mənzillərə köçürülüb. 2019-cu ilin birinci rübündə isə 2.227 məcburi köçkün ailəsi yeni mənzillərlə təmin olunub.

Sonra Laçın rayonu Bozlu tam orta məktəbindəki şəraitlə tanış olan Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, bu təhsil ocağı 220 şagird yerlikdir. Yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlıqları ilə diqqət çəkən məktəbdə təlim-tədris üçün hər cür şərait yaradılıb. Məktəbin kompüter otağında şagirdlər informasiya texnologiyalarının sirlərinə yiyələnəcəklər.

Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu sahə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilib. Bu proses təkcə paytaxtla məhdudlaşmır, bölgələri də əhatə edir, doğma yurdlarından didərgin düşən soydaşlarımızın təhsilinin yüksək səviyyədə qurulmasına xidmət göstərir.

Məktəbin idman zalı da zəruri avadanlıqla təchiz edilib və burada şagirdlərin bədən tərbiyəsi ilə məşğul olmaları üçün hər cür imkan var.

Sonra dövlətimizin başçısı və birinci xanım məcburi köçkünlərlə görüşdülər.

Məcburi köçkünləri salamlayan Prezident İlham Əliyev dedi:

- Bu gün çox əlamətdar bir gündür. Pirallahı rayonunda məcburi köçkünlər üçün gözəl evlər istifadəyə verilir. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Bu, çox gözəl hadisədir. Keyfiyyətli tikilib. Bu günə qədər yararsız binalarda yaşamış köçkünlər indi bu binalarda yaşayacaqlar. Bu, bir daha onu göstərir ki, dövlət məcburi köçkünlərə çox böyük qayğı, diqqət göstərir.

Son illərdə böyük işlər görülüb, həm Bakı şəhərində, həm də bütün bölgələrdə. Məcburi köçkünlərin məişət problemləri uğurla həll olunur. Pirallahı rayonunda yaşayan köçkünlər üçün bu gün bu binaların istifadəyə verilməsi bunu bir daha göstərir. Gözəl mənzillər, məktəb - bütün bunlar bir daha onu göstərir ki, dövlət bu məsələ ilə bağlı çox ciddi tədbirlər görür.

Bu il altı mindən çox məcburi köçkün ailəsi üçün yeni mənzillər, fərdi evlər tikilib istifadəyə veriləcək. Burada isə 306 ailə üçün gözəl şərait yaradılıb. Sizi bir daha bu hadisə münasibətilə ürəkdən təbrik edirəm.

Sakinlər: Çox sağ olun, cənab Prezident.

Prezident İlham Əliyev: Ümumiyyətlə, Pirallahı rayonunun inkişafı uğurlu gedir. Burada infrastruktur obyektləri inşa edilir, yaradılır, binalar tikilir, təmir olunur. Yəni, Pirallahı adası tam yeni görkəm alıb. Artıq bir neçə ildir ki, burada gedən quruculuq işləri çox yaxşı nəticə verir. Siz yaxşı bilirsiniz ki, əvvəllər Pirallahıda vəziyyət o qədər də ürəkaçan deyildi. İndi burada bütün lazımi şərait yaradılıbdır.

⇨ Davamı 3-cü səhifədə



Dövlət məcburi köçkünlərə çox böyük qayğı, diqqət göstərir

Bakının Pirallahı rayonunda məcburi köçkünlər üçün yeni yaşayış kompleksinin açılış mərasimi olub

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər

⇨ Əvvəli 2-ci səhifədə

Laçın rayonundan məcburi köçkün Sevda Musayeva dedi: Çox hörmətli cənab Prezident. Əziz Mehriban xanım. İcazə verin, Sizi Pirallahı sakinləri, - yəni, mən özümü də artıq Pirallahı sakini hesab edirəm, 27 ildir burada məskunlaşmışıq, - məcburi köçkünlər adından və bir təhsil işçisi adından salamlayım, Sizə öz dərin minnətdarlığımı bildirim. Qaçqınlara və məcburi köçkünlərə göstərdiyiniz bu diqqət və qayğıya görə Sizə minnətdarlığımı, təşəkkürümü bildirirəm. Azərbaycanın inkişafı, tərəqqisi, dünya birliyində qüdrətli dövlətə çevrilməsi baxımından apardığınız həm xarici, həm daxili siyasəti mən bir təhsil işçisi kimi bəyənir və dəstəkləyirəm. Mən təhsil işçisi olduğuma görə bu sahədən danışacağam. Hər bir dövlətin inkişafı üçün, bilirsiniz ki, əsas onun elmi, təhsilidir. Bu, danılmazdır. Ümummilli liderimiz Heydər Əliyev həmişə müəllimə, təhsilə, elmə böyük qiymət vermişdir. Elə bu baxımdan onun apardığı siyasətin davamını sizlərdə də hiss edirik, görürük.

Sevda Musayeva görülən bütün bu işlərə, onlara göstərilən diqqətə və məcburi köçkün ailələri üçün yeni məktəblərin inşasına, onların müasir avadanlıqla təmin edilməsinə görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya bir daha minnətdarlığını bildirdi.

O dedi: Bir də Mehriban xanım, Sizə gözaydınlığı verirəm. Mən də bir anayam, Siz də bir anasınız. Sizə gözaydınlığı verirəm. Oğlunuz Vətən qarşısında öz borcunu şərəflə yerinə yetirib geri qayıdıb. Gözünüz aydın olsun.

Mehriban xanım Əliyeva: Çox sağ olun. Allah bütün balaları qorusun.

Prezident İlham Əliyev: Çox sağ olun. Təşəkkür edirəm.

Məcburi köçkünlər üçün biz indi bu şəraiti yaradırıq. Hələ də ağır vəziyyətdə yaşayan köçkünlərimiz var və onların problemləri də gündəlikdədir. İndi genişmiqyaslı işlər aparılır ki, tezliklə bütün köçkünlər yaxşı şəraitlə təmin olunsunlar. 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı apardığı işğalçı siyasətin nəticəsində torpaqlarımız işğal altına düşüb. Bizim əsas vəzifəmiz ərazi bütövlüyümüzü bərpa etməkdir. Bu istiqamətdə işlər aparılır, həm siyasi-diplomatik sahədə, həm ordu quruculuğu sahəsində.

Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üçün Dövlət Proqramı da qəbul edilib. Proqram əsasında evlər tikilir, qəsəbələr salınır. Yüzdən çox qəsəbə salınıbdır və bu istiqamətdə bundan sonra da işlər aparılacaq. Qeyd etdiyim kimi, bu il ən azı altı min ailə yeni mənzillərlə təmin ediləcək. Gələn il ondan da çox yeni evlərin tikilməsi nəzərdə tutulur.

Mehriban xanım Əliyeva: Bir daha təbrik edirəm.

Sonra Laçın rayonundan məcburi köçkün Kəmalə Musayeva dedi: Hörmətli cənab Prezident, hörmətli Mehriban xanım. Biz də Sizi salamlayırıq və məskunlaşdığımız Pirallahı rayonunda Sizi yenidən görməyimizə çox şadıq. Sizin apardığınız uğurlu və məqsədyönlü siyasətin nəticəsidir ki, bu gün doğma respublikamız, doğma Azərbaycanımız gündən-günə yenilənir, sürətli və dinamik inkişaf yolundadır. Biz Sizə çox minnətdarıq, hörmətli cənab Prezident, hörmətli Mehriban xanım. Ona görə ki, Siz daim məcburi köçkünlərə öz diqqət və qayğınızı göstərirsiniz. Hörmətli Mehriban xanım, biz çox yaxşı xatırlayırıq ki, Siz Birinci vitse-prezident təyin olunandan sonra ilk müşavirənizi məhz məcburi köçkünlərin və qaçqınların sosial problemlərinin həllinə həsr etdiniz. Siz xeyirxah, nəcib əməlləriniz ilə bizim xalqımız, Vətənimiz üçün seçilmişlərdənsiniz. Bunun üçün biz Sizə çox minnətdarıq.

Mehriban xanım Əliyeva: Çox sağ olun, çox minnətdaram.

Kəmalə Musayeva: Hörmətli cənab Prezident, hörmətli Mehriban xanım, bizim məskunlaşdığımız Pirallahı rayonuna Sizin diqqətiniz də gözümüzün qarşısındadır. Yəni, çox qısa müddətdə yaradılmasına baxmayaraq, Pirallahı rayonunun da siması gündən-günə, ildən-ilə yenilənir. Pirallahı gündən-günə gözəlləşir. Çox qısa müddətdə burada yeni zavodlar açılmışdır. Şpris zavodu açılmışdır, dərman zavodu tikilir, yeni-yeni parklar salınır. Məcburi köçkünlər üçün belə gözəl qəsəbə salınmışdır. Pirallahı rayonunun sakinləri üçün sosial evlər tikilir. Biz bütün bunlar üçün Sizə dərin minnətdarlığımızı bildiririk.

On nömrəli Birləşmiş Şəhər Xəstəxanasında çalışdığını deyən Kəmalə Musayeva səhiyyə sahəsində aparılan islahatları da vurğuladı. Pirallahı rayon sakinləri, məcburi köçkünlər və səhiyyə işçiləri adından dövlətimizin başçısına və xanımına bir daha minnətdarlığını bildirən Kəmalə Musayeva Prezident İlham Əliyevin rəhbərliyi ilə doğma torpaqlarına qayıdacaqlarına inandıqlarını qeyd etdi.

Prezident İlham Əliyev: Çox sağ olun, təşəkkür edirəm. Xoş sözlərə görə sizə minnətdaram.

Pirallahı rayonunda doğrudan da işlər sürətlə gedir. Quruculuq işləri geniş vüsət almışdır. İş yerlərinin yaradılması istiqamətində də işlər aparılır. Qeyd etdiyiniz kimi, bir müddət bundan əvvəl şpris zavodu istifadəyə verildi. Digər böyük dərman preparatları zavodunun tikintisi gedir. Bu zavodun fəaliyyəti nəticəsində yenə də iş yerlərinin yaradılması nəzərdə tutulur. Burada, Pirallahı rayonunda köçkünlər uzun illərdir ki, yaşayırlar. Köçkünlərin əksəriyyəti Laçın rayonundandır. Laçın rayonu 1992-ci ilin may ayında işğal altına düşmüşdür. Laçın və Kəlbəcər rayonlarının işğal altına düşməsi Ermənistanla Dağlıq Qarabağ arasında əlaqə yaratdı. Ulu öndər Heydər Əliyevin səyləri nəticəsində Ermənistanın işğalçı siyasətinin qarşısının alınması üçün böyük səylər göstərilmişdir. Uğurlu Horadiz əməliyyatı aparılmışdır. Beləliklə, Azərbaycan işğal olunmuş torpaqların bir hissəsini azad edə bilmişdir.

Sonrakı dövrlərdə ordu quruculuğu istiqamətində böyük işlər görüldü. Bu işlərin nəticəsində 2016-cı ildə torpaqlarımızın bir hissəsi də işğalçılardan azad edildi. Ərazi bütövlüyümüzün bərpası bizim üçün əsas məsələdir.

Daha sonra Laçın rayonundan məcburi köçkün Cəbrayıl Heydərov dedi: Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım. Sizi Pirallahı rayonunda görməyimizə çox şadıq. Sizi salamlayırıq, "Xoş gəlmisiniz!" deyirik.

Biz sadə insanlar Sizi görməyə həmişə sevinirik. Sizin hər gəlişiniz biz sadə insanlarda qurub-yaratmaq eşqi yaradır. Mən Pirallahı rayonunda məskunlaşmış laçınlı məcburi köçkün kimi onu qeyd etmək istəyirəm ki, Pirallahı rayonu gündən-günə çiçəklənir, inkişaf edir. Sizin rəhbərliyinizlə həyata keçirilən islahatlar nəticəsində Pirallahı rayonunda böyük quruculuq-abadlıq işləri aparılıb, bütün infrastruktur layihələri icra olunub. Mən Pirallahı rayonunda sahibkarlıq fəaliyyəti ilə məşğul oluram. Cənab Prezident, sahibkarlıq fəaliyyətinə başlayanda cəmi iki nəfər işçimiz olub. Bu gün 50-yə yaxın işçimiz var. Biz işimizlə xalqımıza, dövlətimizə xidmət etməyə çalışırıq. Sizin dəstəyiniz, xüsusilə son illərdə verdiyiniz sərəncamlar, fərmanlar, sahibkarlara göstərdiyiniz diqqət və qayğı nəticəsində biz Pirallahı rayonunda sahibkarlıq fəaliyyəti ilə, - bunu tam səmimiyyətlə deyirəm, cənab Prezident, - heç bir maneə olmadan, tam sərbəst məşğuluq. Rayonda da bizim üçün geniş şərait yaradılıb. Qarşımızda duran əsas məqsəd ölkəmizin idxaldan asılılığını azaltmaq, yeni iş yerləri yaratmaq, insanların həyat şəraitini yaxşılaşdırmaqdır. Rayonumuzda aparılan işlərin nəticəsində yeni iş yerlərinin açılması, əlverişli biznes mühitinin yaradılması, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması bizim işimizə də öz müsbət təsirini göstərmişdir.

Cənab Prezident, Pirallahı rayonunda yaşayan məcburi köçkünlərin əksəriyyəti Laçın rayonundandır. Bu rayonda 286 ailə yaşayır, 1104 nəfər məskunlaşıb. 286 ailədən 110-u Laçın rayonundandır.

Cəbrayıl Heydərov dedi ki, onlar da ölkəmizin, dövlətimizin inkişafı üçün əllərindən gələni edir və ən böyük arzuları torpaqlarımızın işğaldan azad olunması, sahibkarlıq fəaliyyətini öz doğma torpaqlarında davam etdirməkdir. Prezident İlham Əliyevin həm daxili, həm də xarici siyasətini dəstəklədiklərini vurğulayan Cəbrayıl Heydərov dövlətimizin başçısının torpaqlarımızın azad olunması üçün haqq səsimizi bütün ali məclislərdən dünyaya çatdırdığını vurğulayaraq dedi: Sonda Pirallahıda məskunlaşmış məcburi köçkünlər adından, ailəmiz adından Sizə minnətdarlığımızı bildirirəm. Həmişə Sizi dəstələyirik, dəstəkləyəcəyik. Allah Sizi qorusun, cənab Prezident.

Prezident İlham Əliyev: Çox sağ olun, təşəkkür edirəm. Sahibkarlığın inkişafı ilə bağlı çox ciddi addımlar atılıb. Hesab edirəm ki, bu istiqamətdə nailiyyətlər çox ümidvericidir. Bu gün Azərbaycanda güclü sahibkarlar sinfi yaranıbdır. İqtisadi inkişafımızın şaxələndirilməsi istiqamətində sahibkarların çox böyük rolu var. Dövlət öz tərəfindən çox ciddi islahatların aparılması istiqamətində addımlar atır və bu islahatlar yaxşı nəticələr verir.

Bizim gəlirlərimiz artır. Bu ilin altı ayında gəlirlərimiz təxminən 400 milyon manatdan çox artmışdır. Biz, ilk növbədə, bu vəsaiti sosial layihələrə istiqamətləndiririk. Bildiyiniz kimi, bu il çox ciddi sosial paket təsdiqləndi, müavinətlər, o cümlədən məcburi köçkünlər üçün nəzərdə tutulan müavinətlər 50 faiz artırıldı. Problemli kreditlərlə bağlı olan məsələ öz həllini tapdı. Maaşlar, pensiyalar artırıldı. Bu, əlbəttə ki, islahatların birbaşa nəticəsidir. Çünki bu islahatlar bizə əlavə gəlirlər gətirir və biz bu gəlirləri, ilk növbədə, sosial sahəyə yönəldirik. Sosial sahə bundan sonra da bizim üçün prioritet sahə olacaq. Çünki Azərbaycan vətəndaşları ildən-ilə daha da yaxşı yaşamalıdır və biz buna nail olacağıq.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan ilə Fransa arasında siyasi əlaqələr ən yüksək səviyyədədir

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransanın Arktika və Antarktika məsələləri üzrə beynəlxalq danışıqlara məsul səfiri ilə görüşüb

İyulun 5-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak etmək üçün ölkəmizə gələn Fransa Respublikasının Arktika və Antarktika məsələləri üzrə beynəlxalq danışıqlara məsul səfiri, sabiq ekologiya, dayanıqlı inkişaf və energetika naziri xanım Seqolen Ruayal ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə birgə foto çəkdirildi.

Birinci vitse-prezident Mehriban Əliyeva Seqolen Ruayalın ölkəmizə səfərinin uğurlu keçəcəyinə əminliyini ifadə etdi. Birinci vitse-prezident Azərbaycanla Fransa arasında bir çox sahələr üzrə əlaqələrin inkişaf etdiyini məmnunluqla qeyd etdi, siyasi əlaqələrin ən yüksək səviyyədə olduğunu vurğuladı. Mehriban Əliyeva ötən il Prezident İlham Əliyevin, bu il isə özünün Fransaya səfərinin, aparılan danışıqların, imzalanan sənədlərin siyasi əlaqələrin yüksək səviyyəsinin göstəricisi kimi dəyərləndirdi.

İqtisadi sahədə də əməkdaşlığın uğurla inkişaf etdiyini deyən Birinci vitse-prezident bu istiqamətdə yaxşı potensialın mövcudluğunu qeyd etdi. Diqqətə çatdırdı ki, Azərbaycan Cənubi Qafqazda Fransanın ən böyük ticarət tərəfdaşıdır və ölkələrimiz arasında ticarət dövriyyəsində müsbət dinamika var. "Xoş haldır ki, ənənəvi tərəfdaşlıq sahəsi olan enerji əməkdaşlığı ilə yanaşı, qeyri-neft sektorunda da əməkdaşlıq genişlənir", - deyən Birinci vitse-prezident bir sıra Fransa şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyətini qeyd etdi, yüksək texnologiyalar, nəqliyyat, şərabçılıq kimi sahələrdə əlaqələrin möhkəmləndiyini bildirdi.

Ölkələrimiz arasında humanitar sahədə əməkdaşlığın əhəmiyyətini xüsusi vurğulayan Mehriban Əliyeva paytaxtımızda Azərbaycan və Fransa prezidentlərinin iştirakı ilə təməli qoyulan Bakı Fransız Liseyinin və hər 2 ölkənin dövlət başçılarının təşəbbüsü ilə yaradılan Azərbaycan-Fransız Universitetinin uğurla fəaliyyət göstərdiklərini qeyd etdi, humanitar sahənin ölkələrimizin və xalqlarımızın bir araya gətirilməsində böyük rol oynadığını vurğuladı. Birinci vitse-prezident Mehriban Əliyeva son vaxtlar bu istiqamətdə görülən işlərdən danışaraq, Azərbaycanın və Fransanın şəhərləri arasında əməkdaşlıq və dostluq sazişlərinin bağlanmasını ölkələrimiz və xalqlarımız arasında dostluq əlaqələrinin daha da inkişaf etməsinə şərait yaratdığını dedi. Mehriban Əliyeva bir daha qonağı ölkəmizdə salamlayaraq ona uğurlu səfər arzuladı.

Fransanın Arktika və Antarktika məsələləri üzrə beynəlxalq danışıqlara məsul səfiri Seqolen Ruayal Birinci vitse-prezident Mehriban Əliyeva ilə görüşməyin onun üçün şərəf olduğunu bildirdi. Qonaq Mehriban Əliyevanın bu yaxınlarda Parisə səfərini xatırlayaraq, bu səfəri yüksək dəyərləndirdi. Görüşdən əvvəl Bakıdakı Azərbaycan-Fransız Universitetinə getdiyini qeyd edən Seqolen Ruayal belə layihələrin 2 ölkə arasında qurulan əməkdaşlığı təcəssüm etdirdiyini vurğuladı.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə edildi.

"Kaspi" liseyi olimpiadadan 6 medalla qayıdıb

ABŞ-ın Nyu York ştatının Osveqa şəhərində hər il keçirilən GENİUS Olimpiadasında "Kaspi" liseyinin şagirdləri növbəti böyük uğura imza atıblar. Liseyin şagirdləri adı çəkilən olimpiadada 3 qızıl və 3 bürünc olmaqla 6 medal qazanıblar.

Lisey rəhbərliyi şagirdlərin qələbə sevincini bölüşmək üçün onlarla görüşüb.

Əli Əhmədov:

İnanıram ki, Yeni Azərbaycan Partiyasının gənclərinin başladığı qayğı aksiyası bir nümunə olacaq, digər insanlar da ona qoşulacaq

"Yeni Azərbaycan Partiyasının gəncləri dünəndən çox lazımlı və humanist layihəyə başlayıblar. Fədakar gənclərimiz aztəminatlı, qayğıya ehtiyacı olan ailələrə kömək göstərir, onlara dayaq olmağa çalışırlar. Əvvəlcədən demək istəyirəm ki, bu nə partiya çağırışı, nə də tapşırıqdır. Gənc oğlan və qızlar öz təşəbbüsləri ilə belə bir hərəkata başlayıb, özlərinin çox da olmayan imkanları ilə ehtiyacı olan insanlarımıza qayğı göstərirlər. Təqdirəlayiq hərəkətdir. İnsanpərvərliyin və hümanizmin diqqətəlayiq ifadəsidir. Bu, eyni zamanda, dövlətimizin həyata keçirdiyi sosial siyasətə gəncliyin özünəməxsus dəstəyi kimi də qiymətləndirilə bilər. Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə 2019-cu ilin birinci yarısında minimum əmək haqları və pensiyalar 2 dəfə, ayrı-ayrı kateqoriyadan olan vətəndaşlara, o cümlədən məcburi köçkünlərə, şəhid ailələrinə və Qarabağ əlillərinə verilən pensiya və müavinətlər əhəmiyyətli dərəcədə artırıldı. Gənclərimiz də Prezidentin humanist addımına dəstək ifadə edərək sözügedən aksiyaya başlayıblar". Bu fikirlər Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədovun rəsmi "facebook" səhifəsində yerləşdirilmiş "İnsana qayğı ən böyük dəyərdir" adlı məqaləsində yer almışdır.

"İnsana qayğı insanlığın ən ali dəyərlərindəndir" - deyə, qeyd edən Əli Əhmədov daha sonra bildirir: "Sevindirici haldır ki, Yeni Azərbaycan Partiyasının gəncləri bu keyfiyyəti dərindən mənimsəyib, qayğıya, köməyə, adi bir diqqətə ehtiyacı olan insanları yaddan çıxarmır, onlarla bir yerdədir. Söhbət heç də yalnız maddi dəstəkdən getmir. Bəzən mənəvi dəstək daha gərəkli və gözlənilən olur. Mən Azərbaycanın bütün gənclərini aksiyaya qoşulmağa çağırıram. Ətrafdakılara diqqət və qayğı göstərsən, sən də heç zaman diqqət və qayğıdan kənarda qalmazsan".

Baş nazirin müavini Əli Əhmədov sonda gənclərə müraciət edərək hər kəsi bu xeyirxah aksiyaya qoşulmağa dəvət etmişdir: "Mən üzümü müəyyən qrupların, partiyaların və təbliğatların təsiri altında və ya birbaşa çağırışları ilə aqressivləşən, insanları təhqir etməyə, ölkəmizin parlaq imicinə ləkə vurmağa meyilli olan gənclərə tutaraq demək istəyirəm ki, gəncliyə xas olan tükənməyən enerjinizi daha lazımlı işlərə sərf edin. Həm ölkəmiz, həm də insanlar üçün faydalı olmağa çalışın.

İnanıram ki, Yeni Azərbaycan Partiyasının gənclərinin başladığı qayğı aksiyası bir nümunə olacaq, digər insanlar da ona qoşulacaq.

Sağ olun, gənclər! Sizinlə fəxr edirik".

Əməkdar mühəndis, dövlət xadimi Rafiq Xələfovun 80 illiyi ilə bağlı anım mərasimi keçirilib

Əməkdar mühəndis, dövlət xadimi Rafiq Xələfovun 80 illiyi ilə bağlı iyulun 5-də Fəxri xiyabanda mərhumun məzarı önündə anım mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, anım mərasimində mərhumun ailə üzvləri, doğmaları və yaxınları iştirak edib, Rafiq Xələfovla bağlı xatirələrini bölüşüblər.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri, Milli Məclisin deputatı Cavid Qurbanov Əməkdar mühəndis Rafiq Xələfovun Azərbaycan avtomobil yollarının tikintisi sahəsində gördüyü işlərdən danışıb.

Cavid Qurbanov qeyd edib ki, Rafiq Xələfov 1979-cu ildə Azərbaycan avtomobil yollarının tikintisi və istismarı naziri təyin edildikdən sonra ölkənin avtomobil yollarının inşasında və bərpasında böyük işlər görülüb. Belə ki, ölkədə şose yollarının ümumi uzunluğu 23.800 kilometrdən 24.900 kilometrə çatdırıldı. Bərk örtüklü yollar 18.300 kilometrdən 23.800 kilometrədək uzadıldı. Bakı-Sumqayıt-H.Z.Tağıyev-Giləzi, Lökbatan-Qaradağ-Ələt-Astara keçid yolu, İsmayıllıdan, Sabirabaddan, Füzulidən, Tovuzdan qonşu bölgələrə uzanan, bir sözlə, ölkənin bütün yaşayış məntəqələrini biri-birinə calayan yollar salındı. Bunların hamısı magistral, birinci dərəcəli yollardır və Rafiq Xələfovun rəhbərliyi ilə inşa edilib. Cavid Qurbanov vurğulayıb ki, həmin illərdə birinci dərəcəli yolların 5, ikinci dərəcəli yolların 3,2, üçüncü dərəcəli yolların 2,3 dəfə artırılması məhz Rafiq Xələfovun və onun başçılıq etdiyi kollektivin zəhmətinin bəhrəsidir.

"Bakı Tikiş Evi" ASC-nin direktoru Fədail Rəhimov istedadlı təşkilatçı Rafiq Xələfovun Azərbaycan sənayesinin inkişafı üçün gördüyü işlərdən danışıb. O qeyd edib ki, Rafiq Xələfov 1993-cü ildən başlayaraq "Xalq üçün mallar" Dövlət Konserninin idarə heyətinin sədri vəzifəsində çalışıb. "Xalq üçün mallar" Dövlət Konserni də mürəkkəb quruluşa malik bir sahə idi. Konsern ölkə sənayesinin doqquz müxtəlif sahəsinə rəhbərliyi həyata keçirirdi.

O dövrdə iqtisadiyyat tənəzzülə uğramış, keçmiş əlaqələr qırılmış, bazar itirilmişdi. Belə çətin bir vaxtda Rafiq Xələfov istehsalatın bazar iqtisadiyyatı istiqamətində qurulması üçün bütün qüvvələri səfərbər etdi. Nəticədə "Xalq üçün mallar" Dövlət Konserni qısa müddətdə öz məhsullarını xaricə göndərməyə nail oldu. Mütəxəssislər Almaniyaya, Türkiyəyə, Çinə ezamiyyətə yollandılar, müasir texnika, xammal və materialların alınması üçün müqavilələr bağladılar. Əmək ahəngini bərpa edən müəssisələrdə minlərlə insan, o cümlədən qadınlar və qızlar işlə təmin olundular.

Digər çıxış edənlər də Rafiq Xələfov barədə xatirələrini bölüşüb, onun gördüyü işlərin əhəmiyyətini vurğulayıblar.

Sonra Rafiq Xələfovun qızları Sevinc və Fəxriyyə Xələfovalar atalarının anım mərasimində iştirak edən hər kəsə minnətdarlıqlarını bildiriblər. Onlar qeyd ediblər ki, Rafiq Xələfov dövlət xadimi kimi Azərbaycan Respublikasında böyük xidmətlər göstərib. Sevinc Xələfova bildirib ki, atası cəmi 59 il yaşamasına baxmayaraq mühüm işlərə imza atıb. Harada çalışmasından asılı olmayaraq özünəməxsus təşəbbüskarlıq və təşkilatçılıq, əməksevərlik və bacarıqlı rəhbər xüsusiyyətlərini nümayiş etdirib.

Rafiq Xələfov 1962-ci ildə Azərbaycan Politexnik İnstitutunun inşaatçı-mühəndis ixtisasını bitirib. Ali təhsilini bitirəndən sonra müxtəlif sahələrdə çalışıb və elə ilk dövrlərdən özünü səmərələşdirici təkliflərlə çıxış edən, istehsalata yenilik gətirən istedadlı mühəndis kimi göstərib. 1962-1965-ci illərdə "Azərtəsərrüfat" Dövlət Layihə İnstitutunda iqtisadçı, iş icraçısı, baş mühəndis vəzifələrində çalışıb. Sonra "Azərdənizneftikinti" trestinin baş mühəndisi vəzifəsinə irəli çəkilib. 1969-cu ildə Suriya Ərəb Respublikasında yeni kəşf edilmiş neft yataqlarında tikinti işlərinə rəhbərlik edib.

Fəxriyyə Xələfova qeyd edib ki, atası müstəqilliyini bərpa etmiş Azərbaycanın inkişafı üçün ümummilli lider Heydər Əliyevin tapşırıqlarına əsasən çox iş görüb. Bildirib ki, 1993-cü ildə ulu öndər Heydər Əliyev yenidən hakimiyyətə gəldikdən sonra Rafiq Xələfovu çağırıb onun qarşısında mühüm vəzifə qoydu. O, "Xalq üçün mallar" Dövlət Konserninin idarə heyətinin sədri kimi Azərbaycan Silahlı Qüvvələrinin ehtiyaclarını ödəməli idi. Acınacaqlı vəziyyətdə olan, ayaqyalın-başıaçıq ordunu geyindirmək üçün bütün daxili resursları səfərbər etmək lazım idi. "Atam bu işin öhdəsindən gəldi. İş ondadır ki, bu, real işləyən və büdcəyə sanballı gəlir gətirən azsaylı konsernlərdən biri idi. Fabriklər işləməyə başladı, özü də demək olar ki, hamısı hərbi ehtiyaclar üçün işləyirdi. O vaxtın ordusunu təsəvvürünüzə gətirin. Atam isə heç iki il keçməmiş ordunu NATO forması ilə təchiz etdi,"- deyə F.Xələfova vurğulayıb. Təsadüfi deyil ki, 1997-ci ildə "Xalq üçün mallar" Konserni fəaliyyətini bitirdikdən sonra ümummilli lider Heydər Əliyev Rafiq Xələfovu ən geniş səlahiyyətlərlə Baş nazirin müavini təyin etdi. Təəssüf ki, 1998-ci ilin oktyabrında qəfil ölüm Rafiq Xələfovun uğurlu karyerasına son qoydu. O vaxt Rafiq Xələfovun cəmi 59 yaşı vardı və bu ölüm gənc müstəqil dövlətimiz üçün həqiqətən ağır itki idi.

Əməkdar mühəndis, görkəmli dövlət xadimi Rafiq Xələfovla bağlı ailə üzvləri, doğmaları və yaxınlarının xatirələri dinlənildikdən sonra mərhumun ruhuna dualar oxunub.

Qeyd edək ki, əməyi orden və medallarla qiymətləndirilən Rafiq Xələfov iki çağırış Azərbaycan Respublikası Ali Sovetinin deputatı seçilib.

Qurub-yaratmaq, tikmək, yol çəkmək, körpü salmaq Rafiq Xələfovun təkcə sənəti və vəzifəsi deyil, həm də amalı, alın yazısı, ömrünün mənası, həyatını həsr etdiyi iş idi. Bütün bunlar onun şərəfli ömür yolunun bütün mərhələlərində özünü göstərib.

ADA UNİVERSİTETİNİN MƏZUN FORUMU ÖZ İŞİNƏ BAŞLAYIB

İyulun 5-də ADA Universitetində "PWC Azerbaijan" şirkətinin dəstəyi ilə ADA Universitetinin Məzun Forumu öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, tədbiri açan Xarici İşlər nazirinin müavini, ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev forumun davamlı maarifləndirmə, innovativ yanaşma, şəbəkələşmə və yeni əməkdaşlıq üçün platforma yaratmaq məqsədilə keçirildiyini bildirib. Qeyd edib ki, ingilis dilində təhsil verən dövlət ali təhsil müəssisəsi olan ADA Universiteti təsis edilməndən bəri bakalavr və magistr proqramları üzrə 1300 nəfərdən çox məzun buraxıb. Onlardan 44-ü müxtəlif ölkələri təmsil edib. ADA Universitetinin məzunları hazırda ən mötəbər təşkilatlarda yüksək vəzifələrdə çalışır və dövlətimizi layiqincə təmsil edirlər. Sevindirici haldır ki, biz bu məzunları ADA-da keçirilən ilk forumda bir araya gətirə bildik. Həmçinin məzunlarımızın müxtəlif dövlət qurumlarımızda təmsil olunmasını görmək bizim üçün çox xoşdur.

"PWC Azerbaijan" şirkətinin partnyoru Fəxri Mustafayev çıxışında təhsil müəssisələri ilə biznes qurumları arasında güclü tərəfdaşlıq qurulmasının əhəmiyyətindən danışıb. O, ADA Universiteti ilə "PWC Azerbaijan" şirkəti arasında uğurlu partnyorluq münasibətləri olduğunu bildirib.

Sonra forumun əsas mövzusu üzrə tanınmış alim, ADA Universiteti rektorunun müşaviri, akademik Roald Saqdeyev çıxış edib. O, təqdimatında rəqəmsal texnologiyanın keçdiyi inkişaf yolu və onların universitet həyatına, müəllim və tələbələrə necə təsir edəcəyi barədə danışıb. Həmçinin müasir dövrdə süni intellekt texnologiyasının, robotların, virtual reallıq texnologiyalarının insanların işgüzar və sosial həyatına gələcəkdə mümkün təsirlərini qeyd edib. Akademik Roald Saqdeyev süni intellekt texnologiyasının daha geniş tətbiq olunduğunu, bu sahədən hətta ölkələrin beynəlxalq münasibətlərinin proqnozlaşdırılmasında, hərbi strategiyalarının hazırlanmasında istifadə olunduğunu bildirib.

Forum işini panel iclaslarla davam etdirib.

ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə keçirilən iclasda "Qlobal idarəetmə" mövzusu müzakirə olunub. İclasda çıxış edən Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynov bildirib ki, müasir dövrdə texnologiyanın sürətlə inkişaf etməsi qlobal idarəetməyə də öz təsirini göstərir. Yeni ixtiralar, müasir texnoloji kəşflər tənzimləyici mexanizmlərin yaradılmasını labüd edir. Ən müasir texnologiyalara sərmayə yatıran böyük şirkətlər rəqabətə daha davamlı olur, kiçik şirkətlər isə bu rəqabətə davam gətirməyərək tədricən iflasa uğrayır. Ona görə də hökumətlər tarazlığın pozulmasını aradan qaldırmaq üçün idarəetmədə yeni mexanizmlər yaratmalıdırlar.

Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov qeyd edib ki, texnologiyanın inkişafı nəticəsində robotlar gələcəkdə insan əməyinin tətbiq olunduğu işlərin böyük hissəsini yerinə yetirəcək. Bu da bəzi peşələrin ləğv olunmasına və işsizliyin artmasına gətirib çıxaracaq. Buna görə də hökumətin üzərinə böyük məsuliyyət düşür. Dördüncü sənaye inqilabı insanların yeni texnologiyalarla ayaqlaşması, bu sahədə biliklərinin daha da təkminləşməsi üçün ömürboyu öyrənmək prinsipinin əhəmiyyətini qabarıq göstərir.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai qlobal idarəetmənin əhəmiyyətindən və təmsil etdiyi təşkilatın bu sahədəki rolundan danışıb. BMT-nin Dayanaqlı İnkişaf Məqsədlərinə nail olunmasında yüksək texnologiyaların rolunu vurğulayan diplomat bu sahədə təşkilatların birgə əməkdaşlığının vacibliyini qeyd edib.

Forum çərçivəsində müasir dövrdə rəqəmsallaşma, diplomatiya, insan kapitalının inkişafı və s. mövzular müzakirə olunub.

İyulun 6-da öz işini davam etdirəcək forum çərçivəsində ADA Universiteti Məzunları Assosiasiyası yaradılacaq.

"AZƏRİQAZ" "ASAN XİDMƏT" VASİTƏSİLƏ 154460 İSTEHLAKÇIYA XİDMƏT EDİB

SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi (İB) tərəfindən 2019-cu ilin yanvar-iyun ayları ərzində Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən "ASAN xidmət" və "ASAN kommunal" mərkəzlərində istehlakçılardan daxil olan müraciətlər əsasında smart tipli sayğaclar ilə təchiz olunmuş istehlakçılara müvafiq xidmətlərin göstərilməsini, müraciətlərdən asılı olaraq şöbələrdən tələb olunan məlumatların əldə olunmasını və bu məlumatlar əsasında istehlakçılara xidmətlərin göstərilməsini təmin etmişdir.

Cari ilin altı ayı ərzində Bakı şəhəri üzrə 1 və 2 saylı "ASAN kommunal", 4, 5 saylı "ASAN xidmət" mərkəzlərinə və "Səyyar ASAN" xidmətinə, bundan əlavə Bərdə, Sabirabad, İmişli, Masallı, Qəbələ, Quba, Mingəçevir, Şəki, həmçinin Gəncə şəhərində yerləşən "ASAN Xidmət" mərkəzlərinə ümumilikdə 154 min 460 müraciət daxil olmuş və bu müraciətlərin icrası tam təmin edilmişdir.

İstehlakçılarla münasibətlərin təkmilləşdirilməsi, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə Birlik bu istiqamətdə fəaliyyətini bundan sonra da davam etdirəcəkdir.

Yeni Azərbaycan Partiyası ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında birgə Fəaliyyət planı imzalandı

BAŞ NAZİRİN MÜAVİNİ, YAP SƏDRİNİN MÜAVİNİ-İCRA KATİBİ ƏLİ ƏHMƏDOV BİLDİRDİ Kİ, CƏMİYYƏTİMİZİN HƏR BİR ÜZVÜ EKOLOJİ PROBLEMLƏRİN HƏLLİNƏ ÖZ TÖHFƏSİNİ VERMƏLİDİR

Dünən Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyində Yeni Azərbaycan Partiyası ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə Fəaliyyət planının təqdimat mərasimi keçirildi.

Baş Nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bildirdi ki, tədbir ölkəmiz üçün əhəmiyyətli məsələyə həsr olunub: "Yeni Azərbaycan Partiyası ötən dövr ərzində ekoloji mahiyyət kəsb edən layihələr həyata keçirib. Hələ ulu öndər Heydər Əliyevin rəhbərliyi dövründə ağacəkmə kampaniyaları həyata keçirirdik. Bakı şəhərinin müxtəlif yerlərində yaşıllıq zolaqlarının salınmasında yaxından iştirak etmişik. Azərbaycanın ayrı-ayrı bölgələrində yaşıllıqların salınmasında, ekoloji tarazlığın qorunmasına xidmət edən aksiyaların keçirilməsində səylər göstərmişik. Bütün bunların hamısı bu gün bəşəriyyəti düşündürən problemlərdəndir. Bu gün dünyanın əsas çağırışları sırasında ətraf mühitin mühafizəsi ilə bağlı çağırışlar əsas yer tutur. İnsanların sağlam yaşaması üçün ətraf mühitin qorunması əsas şərtlərdən biridir."

"Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin çox mühüm istiqamətlərindən biri ekoloji tarazlığın qorunması, yaşıllıq zolaqlarının genişləndirilməsi, havanın, su hövzələrinin təmizliyinin təmin edilməsidir" söyləyən Ə.Əhmədov qeyd etdi ki, son illərdə paytaxt Bakımızda bu istiqamətlərlə bağlı tədbirlər həyata keçirilib: "Bakının yaşıllıq zolaqları artmaqdadır. Gözəl parklar salınıb. Ciddi su mənbələri olan göllər təmizlənib. Bu tədbirlər ən başlıcası insanların sağlamlığı üçün zəruri olan ekologiyanın qorunmasına xidmət edir."

Ə.Əhmədov vurğuladı ki, Azərbaycanın regionlarında həyata keçirilən tədbirlər də bu tərkibdəndir: "Ekologiyanın sağlamlaşdırılması üçün bütün dünyanı ciddi düşündürən məsələlər Azərbaycan cəmiyyəti üçün də xarakterikdir. Çünki bu, bəşəriyyətin mövcudluğu ilə bilavasitə əlaqədardır. Qlobal xarakter daşıyan bu problemin həllində bütün dövlətlər yaxından iştirak edir. Bəşəriyyət üçün təhlükə yaradan halların aradan qaldırılması üçün birgə səylərin göstərilməsi müasir dövrümüzün əsas çağırışları sırasındadır. Təbii ki, Azərbaycan da bu proseslərdən kənarda qalmır. Bütövlükdə 2030-cu ilə qədər dünyanın dəyişdirilməsi, transformasiyası adı altında Birləşmiş Millətlər Təşkilatının böyük qlobal layihəsi hazırlanıb həyata keçirilir. Bu layihədə qarşıya qoyulan bir sıra məqsədlər, ayrı-ayrı ölkələr üçün mühüm məsələlər, o cümlədən çox böyük qlobal əhəmiyyət kəsb edən ekoloji tarazlığın bərpası məsələsi öz əksini tapıb. 2030-cu ilə qədər bütün dünya dövlətləri, o cümlədən Azərbaycan da bu qlobal layihənin həyata keçirilməsinə dəstək olacaq."

YAP Sədrinin müavini qeyd etdi ki, bu mənada hər bir cəmiyyət öz gələcəyini düşünür: " Bütövlükdə dünya üçün qlobal problemlərdən biri ekologiyanın qorunmasıdır. Yəqin ki, gələcəkdə bu məsələ daha ciddi şəkildə qarşıya qoyulacaq. Ekologiyanın dəyişməsi ilə bağlı bəşəriyyət çox ciddi narahatlıq keçirir. Bu, digər ölkələr kimi, Azərbaycanı da narahat edir."

"Bu mənada Yeni Azərbaycan Partiyasının qlobal çağırışlara bu şəkildə cavab verməsi təbiidir" söyləyən Ə.Əhmədov qeyd etdi ki, Azərbaycan cəmiyyətini narahat edən məsələlərə imkanlarımız daxilində töhfələr verməyə çalışırıq: "Məmnunluq hissi ilə qeyd etmək lazımdır ki, bu tərkibdən olan layihələrin həyata keçirilməsində Yeni Azərbaycan Partiyasının bütün təşəbbüsləri Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən daim dəstəklənib. Ötən il Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə "700 min ağac əkək" layihəsi həyata keçirildi. Bu layihə 4-5 ay müddətində icra olundu. Layihənin adı təbii ki, partiyanın üzvlərinin sayı ilə bağlı idi. Bu layihənin həyata keçirilməsində Ekologiya və Təbii Sərvətlər Nazirliyi böyük dəstək oldu. Eyni zamanda, partiyanın şəhər və rayon təşkilatları da bölgələrimizdə bu kampaniyanın həyata keçirilməsində yaxından iştirak etdilər. Bu kimi aksiyaların neçə ildən sonra bəhrələrini gördükdə çox məmnun oluruq. Buna görə də hesab etdik ki, bu istiqamətdə həyata keçirdiyimiz tədbirləri davam etdirək, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə tədbirlər planı təsdiqləyib uğurlu icrasına nail olaq."

Ə.Əhmədov vurğuladı ki, tədbirlərin sistemli şəkildə həyata keçirilməsi qarşıya qoyulan məqsədlərə lazımi səviyyədə nail olmağa əsas verir: "Güman edirəm ki, YAP-ın və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə dəstəyi ilə həyata keçiriləcək tədbirlər bir yandan ekologiyamıza müsbət təsir göstərəcək, digər tərəfdən bu cəmiyyətə bir mesaj olacaq ki, ətraf mühitin, yaşıllıqların qorunması üçün səylərin göstərilməsi hər kəsin borcudur. Ona görə ki, təmiz havanı hər kəs udur, təmiz suya hər kəsin ehtiyacı var. Bir halda ki, ekologiya, təmiz hava, təmiz su hər bir vətəndaş üçün həyati əhəmiyyət kəsb edirsə, insanlar da bu yöndəki problemlərin həll olunmasında fəal iştirak etməlidirlər. Partiyamızın Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə Fəaliyyət planının bir məqsədi də odur ki, cəmiyyətimizin hər bir üzvü ekoloji problemlərin həll olunmasına töhfə versin. Hər kəsin iştirakı olmadan bugünkü çağırışlar kontekstində ekologiyanın qorunub saxlanılmasına nail olmaq mümkün deyil. Bu, bütövlükdə cəmiyyətimizin vəzifəsidir. Tədbirin maarifləndirici rolu böyükdür. Yeni Azərbaycan Partiyasının missiyasından biri də ondan ibarətdir ki, cəmiyyətə bu mesajı ünvanlamaqla, özü nümunə göstərməklə bütövlükdə hər bir vətəndaşın, cəmiyyətin səfərbər olmasına köməklik göstərmiş olur. Bu təşəbbüs böyük ictimai dəstək əldə edir."

Tədbirdə çıxış edən ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Yeni Azərbaycan Partiyası ilə əməkdaşlıqdan məmnunluğunu ifadə etdi: "Ətraf mühitin qorunması dövlət siyasətinin prioritetlərindən biridir və Prezident İlham Əliyev bu məsələni xüsusi diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısı İlham Əliyev tərəfindən verilən tapşırıqlar bu sahədə ciddi addımların atılmasını bir tələb kimi qarşıya qoyur. Görülən tədbirlər, eyni zamanda, maarifləndirici xarakter daşıyır. Ekologiyanın qorunması, ətraf mühitin mühafizəsi hər kəsin vətəndaşlıq borcudur."

M.Babayev Yeni Azərbaycan Partiyası ilə imzalanan Fəaliyyət planını Ekologiya və Təbii Sərvətlər Nazirliyi üçün bir şans kimi dəyərləndirdi: "Birgə səylərin göstərilməsi, ictimai dəstək qarşıya qoyulan məqsədlərin uğurlu icrasına böyük stimul verir. Yeni Azərbaycan Partiyası böyük potensiala malikdir. Müxtəlif ekoloji layihələrin həyata keçirilməsində partiyanın potensialından istifadə olunması yüksək nəticələr verir. Bu baxımdan, Yeni Azərbaycan Partiyası ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə Fəaliyyət planı böyük əhəmiyyət kəsb edir."

Fəaliyyət planının iki illik nəzərdə tutulduğunu önə çəkən M.Babayev bildirdi ki, bu addımın daha uzun bir müddəti əhatə edəcəyinə ümidvaram: "Dünyanın əsas qlobal çağırışlarından olan ekoloji tarazlığın qorunması, ətraf mühitin mühafizəsi kimi məsələlərin həllinə birgə dəstəyimiz əsasında töhfələr verək."

M.Babayev Fəaliyyət planının perspektivlərindən bəhs edərək, "təbiəti sevək", "təbiəti qoruyaq" kimi prinsipləri fəaliyyətinin önündə saxlayan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ictimai birliklərlə birgə əməkdaşlığının faydalarını diqqətə çatdırdı.

Sonda Baş Nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov, Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev birgə Fəaliyyət planını imzaladılar.

Yeganə Əliyeva,
Vüsal Cahanov (foto),
"İki sahil"

Kəngərli rayonunda icbari tibbi sığortanın tətbiqi sahəsində işlər başa çatdırılıb

İyulun 5-də Kəngərli rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbir keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak edib.

Kəngərli Rayon Mərkəzi Xəstəxanasının baş tibb bacısı Ramidə Rüstəmova yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq edərək deyib: "Naxçıvan Muxtar Respublikasının digər yaşayış məntəqələrində olduğu kimi, Kəngərli rayonunda da bütün sahələr inkişaf etdirilir. Görülən işlər səhiyyə xidmətinin də hərtərəfli təşkilinə imkan verir. Rayon mərkəzi xəstəxanası yenidən qurulub, müasir tibbi avadanlıqlarla təchiz olunub. İcbari tibbi sığortanın tətbiqi də bu tədbirlərin davamı kimi həm səhiyyə işçiləri, həm də sakinlər tərəfindən minnətdarlıqla qarşılanır".

Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov çıxış edərək deyib ki, muxtar respublikada səhiyyənin inkişafı istiqamətində həyata keçirilən tədbirlər, müasir infrastrukturun yaradılması əhaliyə göstərilən tibbi xidmətin səviyyəsini xeyli yüksəldib.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Samiq Sadıxov deyib ki, muxtar respublikada həyata keçirilən səhiyyə islahatları icbari tibbi sığortanın tətbiqinə geniş imkanlar yaradıb. Hazırda muxtar respublikada icbari tibbi sığortanın baza zərfinə 18 ilkin səhiyyə, 5 təcili və təxirəsalınmaz, 471 ambulator, 285 laborator müayinə, 23 fizioterapevtik, 600 stasionar və 123 həyati vacib tibbi xidmət daxildir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kəngərli rayonunda icbari tibbi sığortanın tətbiqi sahəsində işlərin başa çatması münasibətilə kollektivi və sakinləri təbrik edərək deyib: Kəngərli Rayon Mərkəzi Xəstəxanası lazım olan tibbi avadanlıqlarla təmin olunmuş, icbari tibbi sığortanın tətbiqi ilə bağlı qeydiyyat işləri başa çatdırılmışdır. Bu gün Kəngərli Rayon Mərkəzi Xəstəxanası icbari tibbi sığortanın həyata keçirilməsinə tam hazırdır. Rayonda 32 mindən artıq əhali yaşayır. Rayon Mərkəzi Xəstəxanası, 5 həkim ambulatoriyası, 5 feldşer-mama məntəqəsi fəaliyyət göstərir, səhiyyə müəssisələrində 171 nəfərlik tibbi heyət və texniki işçi çalışır. Yaradılan şəraitin nəticəsidir ki, Kəngərli rayonunda tibbi sığortanın baza zərfinə daxil olan 1525 tibbi xidmətdən 400-ə yaxını həyata keçiriləcəkdir. Digər tibbi xidmətlər isə Şərur rayonunda və muxtar respublikanın paytaxtı Naxçıvan şəhərindəki xəstəxanalarda həyata keçiriləcəkdir. Bütün bunlar dövlətin insanlara göstərdiyi qayğının daha bir nümunəsidir.

Ali Məclisin Sədri deyib: İcbari tibbi sığorta vacib sahədir. Çünki səhiyyə müəssisələrinə müraciət edən insanlar lazımi səviyyədə tibbi xidmət almadıqda xarici ölkələrə üz tuturlar. Bu da ölkəmizin imicinə mənfi təsir göstərir, eyni zamanda, maliyyə vəsaitləri xaricə axır. Lakin icbari tibbi sığortanın tətbiqi insanların keyfiyyətli tibbi xidmətlə təmin olunmasına imkan verəcəkdir. Kəngərli rayonunda da icbari tibbi sığortanın tətbiqi üçün dövlətimiz tərəfindən vəsait ayrılmış, müasir tibbi avadanlıqlar alınaraq quraşdırılmışdır. Artıq muxtar respublikanın üç rayonunda icbari tibbi sığorta uğurla tətbiq olunacaqdır.

Ali Məclisin Sədri kollektivi bir daha təbrik edib, Kəngərli rayonunda icbari tibbi sığortanın tətbiqi sahəsində görülən işlərlə maraqlanıb.

Xəstəxananın həkimi Coşqun Babayev deyib: "Dünyanın bir çox ölkələrində kurslarda oluruq. Lakin əminliklə demək olar ki, bu gün muxtar respublikanın səhiyyə müəssisələrində quraşdırılan avadanlıqlar, tibbi xidmətin təşkili üçün yaradılan şərait nümunə gücündədir. Qarşımızda duran vəzifə mövcud imkanlardan səmərəli istifadə edərək əhaliyə nümunəvi xidmət göstərməkdir".

Kəngərli Rayon Mərkəzi Xəstəxanasına yeni təcili tibbi yardım avtomobili təqdim olunub.

İyulun 5-də Kəngərli rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı müşavirə keçirilib. Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Samiq Sadıxov aidiyyatı üzrə məlumat veriblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək deyib ki, Kəngərli rayonunda icbari tibbi sığortaya keçidlə bağlı bütün işlər başa çatdırılmışdır. Ona görə də bu il avqustun 1-dən etibarən Kəngərli rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılmalı, həkim və tibb işçilərinin əməkhaqları artırılmalıdır. Əhali arasında maarifləndirmə işləri aparılmalı, sakinlərə icbari tibbi sığortanın əhəmiyyəti barədə məlumat verilməlidir. Muxtar respublikada icbari tibbi sığortanın tətbiq olunacağı növbəti yaşayış məntəqəsi Şahbuz rayonudur. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən Şahbuz rayonunda məlumatlar toplanılmalı, icbari tibbi sığortanın tətbiqi sahəsində işlərə başlanılmalı və ilin sonuna qədər başa çatdırılmalıdır.

"Müalicənin əsasını düzgün müayinə təşkil edir", - deyən Ali Məclisin Sədri Kəngərli rayonunda da müayinə və müalicələrin düzgün aparılacağına əminliyini bildirib, həkimlərin muxtar respublikanın səhiyyə müəssisələrinə kurslara göndərilməsi, eyni zamanda, rayon mərkəzi xəstəxanasına həkimlərin ezam olunması barədə müvafiq tapşırıqlar verib.

Hikmət Hacıyev:

Azərbaycanın xarici ölkələrdə diplomatik nümayəndəliklərinin sayı artır

Azərbaycanın xarici diplomatik nümayəndəliklərinin təmsilçilərinin sayı artır.

Bunu Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının əməkdaşlarının hazırladıqları "Azərbaycan diplomatiyası" adlı elektron resursun təqdimat mərasimi zamanı deyib.

O bildirib ki, Azərbaycanın xarici ölkələrdə diplomatik nümayəndəliklərinin sayı artmaqdadır: "Bu da xarici siyasətimizin coğrafiyasının genişlənməsinin bariz nümunəsidir. Bu gün Azərbaycan diplomatiyası dövlət başçısı tərəfindən qoyulan tapşırıqları qətiyyətlə, əzmlə, sədaqətlə yerinə yetirir. Diplomatlarımız ictimai-siyasi vəziyyəti ağır olan ölkələrdə ölkəmizi layiqincə təmsil edirlər. Sevindirici haldır ki, onların sırasında gənclər, həmçinin qadınların sayı artır. ADA Universitetinin məzunları Xarici İşlər Nazirliyində, Azərbaycanın xaricdəki diplomatik nümayəndəliklərində çalışırlar".

Tədbirdə, həmçinin məlumat verilib ki, Azərbaycan 183 xarici ölkə ilə diplomatik əlaqələrə malikdir.

Azərbaycanın 59 ölkədə səfirliyi, 9 şəhərdə baş konsulluğu, 17 ölkədə fəxri konsulluğu, 19 beynəlxalq təşkilat yanında nümayəndəliyi fəaliyyətdədir.

Ermənistanda siyasi məzhəkənin yeni çalarları

Hakimiyyətdə olduğu müddətdə baş nazir Nikol Paşinyan o qədər əcaib və qeyri-ciddi hərəkətlərə yol verib ki, yəqin ki, belə gedişlə o çox da hakimiyyətdə qala bilməyəcək. Bəllidir ki, bu adam küçə psixologiyası ilə sadəcə Ermənistanın cinayətkar sabiq prezidenti Serj Sarkisyan və əvvəlki Qarabağ klanının səhv idarəetmə siyasəti nəticəsində hakimiyyətə gəlib.

Bu günlərdə isə Paşinyanla bağlı növbəti qalmaqal ölkəni bir-birinə vurub. Xüsusi xidmət orqanları baş nazirin sosial şəbəkələrdə yayılmış saxta məktubunun müəllifini axtarırlar. NATO-nun baş katibi Yens Stoltenberqə ünvanlanmış məktubda Ermənistan hökumətinin başçısı guya Şimali Atlantika Alyansı ilə daha sıx əməkdaşlığa hazır olduğunu və Dağlıq Qarabağ münaqişəsinin bunun qarşısında ən böyük əngəl təşkil etdiyini bildirir. O, bu kontekstdə guya ilin sonunadək "erməni qoşunlarını Dağlıq Qarabağdan çıxaracağını" vəd edib. Erməni mediası yazır ki, saxta məktubda Ermənistan qoşunlarının münaqişə zonasından çıxarılacağı və Dağlıq Qarabağın Azərbaycanın nəzarətinə veriləcəyinə dair ümumxalq referendumu keçiriləcəyi barədə fikirlər də yer alıb. Məktub iyulun 1-də hansısa Artur Qriqoryanın adından Gosnews.ru adlı saytda "Ermənistanda yeni inqilab qaçılmazdır" başlıqlı şərhi ilə yerləşdirilib. Şərhdə deyilir ki, Paşinyan hakimiyyətə gələndən bəri verdiyi vədlərə əməl edə bilməyib, üstəlik Qarabağı Azərbaycana qaytarmağa hazırlaşır. Bu feyk məktubu ilk dəfə informasiya təhlükəsizliyi üzrə ekspert Samvel Martirosyan aşkar edib. O bildirib ki, yüksək ehtimalla məktubun mətni Ermənistanın hüdudlarından kənarda hazırlanıb. S.Martirosyan qeyd edib ki, məktub ingiliscə qüsursuz və olduqca savadlı hazırlanıb. Bu xüsusat məktubun Ermənistan daxilində hazırlanmasını demək olar, istisna edir. "Xarici izlər axtarılır. Bir neçə variant var, amma mən hazırda onları demək istəmirəm, çünki sübutum yoxdur. Lakin aydındır ki, məktub Ermənistanda tərtib edilməyib. Paşinyanın ən lənətli düşmənləri də forumlarda məktubun feyk olduğunu bildirirlər",- deyə Martirosyan bildirib.

Ermənistan Milli Təhlükəsizlik Xidmətinin mətbuat katibi Samson Qalstyan isə məlumatı şərh etməkdən imtina edib. Ermənistan Xarici İşlər Nazirliyinin rəsmisi isə məktubun feyk olduğunu təsdiq edib, lakin onu şərh etmək istəməyib. Paşinyanın mətbuat katibi də bu məsələ ilə bağlı jurnalistlərin suallarını cavablandırmayıb. Belə bir siyasi gərginlik içərisində iqtisadi təbəddülatlar da gündən-günə kəskinləşir. Paşinyan hökuməti vəzifə başına gəlməmişdən verdiyi vədləri yerinə yetirə bilmir. Ona görə də əhali bir tikə çörək pulunu qazanmaq üçün hər nəyə desən gedir. Lakin buna da məmurlar imkan vermirlər. İrəvan küçələrində hər gün nümayiş keçirilir. Gah bu, gah da digər istehsal sahəsinin əməkçiləri hökumətdən haqq-ədalət tələb edirlər. Axırıncı mitinqlərdən birində etiraz aksiyasının iştirakçıları deyiblər ki, "biz zibildən pul düzəldirik, amma bunu da bizə qadağan edirlər". Metal qırıntılarını küçələrdən toplayıb emal edən vətəndaşlara belə fəaliyyət göstərməyə mane olurlar. Baş nazirlə görüşməyə can atan etirazçılar onun xəyalpərvərliyini yada salıblar: "Baş nazir deyib ki, küçələrdən bu zibillər itməyənəcən inqilab davam edəcək. Bununla belə bu gün bizə bu işdə mane olurlar". Zavallı ermənilər qalıblar pafosla reallıq arasında çabalayaçabalaya. Binəvalar başa düşmürlər ki, inqilabi pafos reallıqda acınacaqlı gündəmdir. Ermənistanın ictimai-siyasi gündəmi, beləcə qeyri-müəyyən olaraq qalır. Suların nə vaxt durulacağı məlum deyil.

✍ **Sevinc Azadi,**
"İki sahil"

“The Jerusalem Post”:

Ermənistan-Azərbaycan münaqişəsi: israilli jurnalistlər təmas xəttində olublar

İsrailli jurnalistlərin Azərbaycana səfəri səmərəli olub. İsraillə Azərbaycan arasında etibarlı və möhkəm tərəfdaşlıq münasibətləri var. İki ölkə arasında siyasi dialoq ən yüksək səviyyədədir, illik ticarət dövriyyəsinin həcmi 3,5 milyard ABŞ dollarına çatır, enerji sektoru isə bu münasibətlərin strateji əsası və dayağıdır.

AZƏRTAC xəbər verir ki, beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert Arye Qut bu barədə İsraildə çıxan nüfuzlu ingilisdilli “The Jerusalem Post” qəzetində dərc olunmuş “Ermənistan-Azərbaycan münaqişəsi: israilli jurnalistlər təmas xəttində olublar” sərlövhəli məqaləsində yazır.

Məqalə müəllifi qeyd edir ki, Azərbaycanda əhalinin təqribən 90 faizi müsəlman, islam dini rəsmi din olsa da bu ölkə tamamilə dünyəvi dövlətdir.

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov deyib: “Bizim ölkəmiz islam dünyasının bir hissəsidir. Lakin bu gün İsrail ilə Azərbaycan arasında ticarət, energetika və iqtisadiyyat sahələrində müstəsna müsbət, konstruktiv münasibətlər var. Azərbaycan İsrail ilə yaxşı münasibətlərini dəstəkləməkdə və inkişaf etdirməkdə maraqlıdır. Əhalisinin əksəriyyəti müsəlmanlar olan Azərbaycanda yəhudilər tarixən sülh və həmrəylik şəraitində yaşayıblar. Bu gün Azərbaycanda və İsraildə yaşayan yəhudilər arasında sıx əlaqə var”.

Azərbaycan XİN rəhbəri vurğulayıb: “Azərbaycan digər etnik və dini qruplar, o cümlədən xristian və yəhudi icmaları üçün də doğma ev kimidir. Hətta 30 ilə yaxın bundan əvvəl Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başlananda da Azərbaycan cəmiyyətində etnik qruplar arasında sülh və harmoniya qorunub saxlanıldı”.

Arye Qut qeyd edir ki, israilli jurnalistlər Bakıda olarkən 95 metr hündürlüyündə dörd minarəsi olan möhtəşəm Heydər Məscidini ziyarət ediblər. İsrailli ekspert yazır: “Bu möhtəşəm məsciddə bizi biri şiə, digəri sünni məzhəbli iki imam, habelə dini konfessiyaların nümayəndələri, o cümlədən dağ yəhudilərinin başçısı Melih Yevdayev və alban-udi icmasının rəhbəri Robert Mobili qarşıladılar. Onlar bizə dedilər ki, bütün dinlərə mənsub insanlar arasında hörmət və harmoniya mövcud ola bilər”.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin rəhbəri Rəvan Həsənov deyir: “Bu səmərəli qarşılıqlı münasibətlərin səbəbi odur ki, Azərbaycan həmişə multikulturalizmin hökm sürdüyü nadir məkan olub.

Ermənistanla münaqişə

Məqalə müəllifi vurğulayır ki, 1991-ci ildə Sovet İttifaqının dağılması Azərbaycana xas olan ənənəvi dözümlülük və multikulturalizm münasibətləri üçün əsl sınaq oldu. Arye Qut vurğulayır: “Həmin dövrdə Ermənistan Respublikası Azərbaycana müdaxilə etdi və respublika torpaqlarının təqribən 20 faizini, o cümlədən Dağlıq Qarabağ regionunu və ona bitişik yeddi rayonu işğal etdi. Elan olunmamış bu müharibə nəticəsində təqribən 30.000 azərbaycanlı həlak oldu, bir milyona yaxın azərbaycanlı öz yurdunda qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. Ermənistanın zorakılıq və qəddarlıqla törətdiyi bu təcavüzkar işğalçılıq hərəkətləri, habelə soyqırımı aktı XX əsrin sonunda ən dəhşətli faciələrdən biridir. Xocalıda törədilmiş soyqırımı aktını xatırlatmaq da yerinə düşər. Həmin qırğın nəticəsində bir gecədə 613 azərbaycanlı qətlə yetirildi, 487 nəfər yaralandı, 1275 dinc sakin girov götürüldü. Bu insanların yeganə “təqsiri” onların azərbaycanlı olması idi”.

İsrailli ekspert qeyd edir ki, Ermənistan tərəfindən 27 ildən çox bundan əvvəl işğal edilmiş Azərbaycan əraziləri ilə hərbi təmas zonasına - cəbhəyanı zonaya səfər etmiş israilli və digər xarici jurnalistlər çox olmayıb. Arye Qut yazır: “Cəmi üç il bundan əvvəl bizim indi dayandığımız və müşahidə etdiyimiz yerdə hərbi əməliyyatlar, real müharibə gedirdi. Öyrəndik ki, 2016-cı ilin aprel ayında Azərbaycan Ordusu Ermənistanın hərbi provokasiyasına cavab olaraq Ermənistan silahlı qüvvələrinə ciddi zərbələr endirməklə öz vətəndaşlarının təhlükəsizliyini təmin edib.

Tərtər rayonunun Marağa kəndində 1978-ci ildə - ermənilərin İrandan Azərbaycanın bu hissəsinə köçürülməsinin 150 illiyi münasibətilə ucaldılmış “Marağa” abidəsinə baxdıq. Bizə izah etdilər ki, XX əsrin 80-ci illərinin sonunda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başlananda ermənilər bu abidəni dağıdıblar. Sonradan abidənin qalıqları bərpa edilib və Dağlıq Qarabağın əzəli Azərbaycan ərazisi olmasının sübutu kimi qorunub saxlanıb”.

Azərbaycan Müdafiə nazirinin müavini ilə görüş

Arye Qut vurğulayır ki, israilli jurnalistlər Tərtərdə və Cocuq Mərcanlıda olarkən Azərbaycan Ordusunun zabitləri və əsgərləri ilə görüşüblər. Hərbçilər bildiriblər ki, Azərbaycan istər canlı qüvvə, istərsə də silahlanma baxımından Ermənistandan tam hərbi üstünlüyə malikdir. Arye Qut yazır: “Lələtəpədə əsgərlərə baş çəkdik. Biz ətrafa nəzər salanda anladıq ki, Lələtəpə yüksəkliyi sayəsində geniş bir əraziyə tam nəzarət etmək olar. 1993-cü ildə hərbi əməliyyatlar zamanı erməni silahlı dəstələri bu yüksəkliyi ələ keçirmiş, orada möhkəmlənmiş mövqe yaratmışdılar. Lakin azərbaycanlı əsgər və zabitlər qısamüddətli, amma ağır döyüşdən sonra bu kompleksi azad ediblər. Əsgərlər və zabitlər döyüş əməliyyatlarının yenidən necə başlanmasını, Lələtəpə yüksəkliyinin erməni silahlı dəstələrindən necə azad edildiyini ətraflı təsvir etdilər. Təcrübə göstərir ki, müasir müharibədə hansı tərəfin daha yüksək texnoloji silahları varsa, həmin tərəf qalib gəlir. 2016-cı ildə Aprel döyüşləri zamanı İsraildə istehsal edilmiş pilotsuz uçuş aparatlarının erməni işğalçılara qarşı səmərəli tətbiq edilməsini xatırlamaq kifayətdir. Bu barədə çox danışmaq olar”.

Azərbaycan Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev dedi: “Beynəlxalq təşkilatlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə münasibətdə ikili standartlar nümayiş etdirirlər. Biz işğal altında olan tarixi torpaqlarımızı azad etməyə hazır olmaq üçün Azərbaycan Ordusunun döyüş qabiliyyətini yüksəltməliyik. Biz qan tökülməsini istəmirik. Lakin əgər münaqişənin nizamlanması üçün başqa vasitələr nəticə verməsə, bizim ordumuz torpaqlarımızı azad etməyə qabildir”.

General Vəliyev sözünə davam edərək dedi: “2016-cı ilin Aprel döyüşləri göstərdi ki, bu münaqişə həll edilə bilər. Azərbaycan bu münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında dinc yolla nizamlanmasının tərəfdarıdır. Lakin dinc yolla problemin həlli tapılmasa, biz ölkəmizin ərazi bütövlüyünü başqa vasitələrlə təmin etmək hüququmuzdan istifadə edəcəyik. Azərbaycan Ordusu işğal altında olan ərazilərimizi erməni təcavüzündən azad etməyə hazırdır”.

Aşağı Əbdürrəhmanlı kəndinə səfər

Arye Qut qeyd edir ki, onlar Aşağı Əbdürrəhmanlı kəndinə səfər zamanı çox kədərli bir mənzərə ilə üzləşiblər. Erməni təcavüzü nəticəsində kənd boşalıb. Dağıdılmış evlər, məktəblər, uşaq bağçaları, yandırılmış torpaq... İndi kabusu xatırladan bu kənddə sanki həyat da, zaman da dayanıb.

Bu kəndin sakini, mənim dostum Umud Mirzəyev israilli jurnalistlərə erməni silahlı dəstələri tərəfindən məhv edilmiş kəndinin taleyi barədə danışdı.

Viran edilmiş kəndi gəzirik, dağıdılmış evləri, məktəbləri, uçurulmuş, eybəcər hala salınmış məzar daşlarını gördük. Bu, dəhşətdir: Erməni snayperlər hətta ölülərə də atəş açırlar. Bizi müşayiət edən əsgərlər Umuda təlimat keçirlər, əyilməsini məsləhət görürlər. Lakin emosional Umud əyilmir və məzarın qarşısında dayanaraq, öz torpağına, ulu babasının, babasının və atasının torpağına, öz ölkəsinə və Azərbaycan xalqına sadiq qalacağını bildirir.

O, bizi özünün doğulduğu, sonradan ermənilər tərəfindən dağıdılmış kəndə aparmağı təklif etdi. Çöhrəsindən nur yağan bu yaşlı insan danışdıqca kövrəlirdi: “Burada mənim məktəbim olub, burada mənim evim olub, həyat yoldaşımın valideynlərinin evi burada olub, uşaq vaxtı burada futbol oynayırdıq”. Yamyaşıl təpəliyə çatanda isə sözünə davam etdi: “Burada atamın vəsiyyətini yerinə yetirmişəm. O, öləndə öz kəndimizdə, öz torpağımızda dəfn olunmasını vəsiyyət etdi. Mənə dedi: “Oğlum, Azərbaycan torpaqlarının azad edilməsi prosesi başlanıb və inanıram ki, yaxın gələcəkdə torpaqlarımızın hamısı azad ediləcək, məni öz kəndimizdə dəfn et”.

Cocuq Mərcanlı

Arye Qut və israilli jurnalistlər erməni işğalının daha bir qurbanını - məşhur Cocuq Mərcanlı kəndini ziyarət ediblər. İsrailli ekspert yazır: “Bizə söyləmişdilər ki, Azərbaycanın bu kəndi işğalçılar tərəfindən dağıdılıb, lakin oradakı erməni silahlı dəstələri darmadağın ediləndən sonra Azərbaycan rəhbərliyi bu kəndi bərpa edib. Azərbaycanlılar istəyirlər ki, ərazilərinin işğal olunması, bir milyondan çox qaçqının və məcburi köçkünün problemləri barədə dünya ictimaiyyətinin məlumatı daha çox olsun. Onlar istəyirlər ki, erməni işğalı nəticəsində Azərbaycan xalqının üzləşdiyi dəhşətli fəlakət barədə, bu xalqın öz torpaqlarına qayıtmaq və yurdlarını bərpa etmək arzusu barədə bütün dünya bilsin”.

Prezidentin köməkçisi ilə görüş

Məqalə müəllifinin sözlərinə görə Azərbaycanın güclü, müstəqil dövlət, Cənubi Qafqaz regionunun real lideri olması bu gün hamılıqla qəbul edilmiş faktdır. Azərbaycan özünün müxtəlif geosiyasi və geoiqtisadi layihələri sayəsində regionda və onun hüdudlarından kənarda sülhə və firavanlığa şərait yaradır.

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında strateji münasibətləri yüksək qiymətləndirir.

Əli Həsənov deyib: “İsrail və Azərbaycan siyasi, iqtisadi və hərbi-strateji sahələrdə uğurla və səmərəli əməkdaşlıq edirlər. Azərbaycana səfər etmiş ilk israilli yüksəkvəzifəli dövlət xadimi Benyamin Netanyahu olub. O, 1997-ci ildə Baş Nazir vəzifəsində birinci kadensiyası dövründə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevlə görüşüb. Məhz bu tarixi səfərdən sonra ölkələrimiz arasında xüsusi münasibətlər yaranıb”.

Əli Həsənov daha sonra vurğulayıb: “2016-cı ilin dekabrında Baş Nazir Netanyahu Azərbaycana ilk rəsmi səfər edib. Bu, ölkələrimizin və onların liderlərinin Bakı ilə Təl-Əviv arasında strateji tərəfdaşlığı möhkəmlətmək və genişləndirmək əzmini nümayiş etdirdi. Biz İsrailin Baş Naziri Benyamin Netanyahunun Azərbaycana və ölkəmizin Prezidenti İlham Əliyevə hörmətini böyük ehtiramla etiraf edir və qiymətləndiririk”.

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov deyib: “Qeyd etmək istəyirəm ki, İsraildə istehlak edilən neftin 65 faizi məhz Azərbaycandan daxil olur. Azərbaycan da, öz növbəsində, İsrailin ixrac etdiyi yüksək texnoloji məhsulların ən sanballı alıcılarından biridir. İsrailli mütəxəssislər illər boyu Azərbaycanda müxtəlif sahələrdə çalışırlar.

İsraildə bu ölkənin cəmiyyətinə uğurla inteqrasiya olunmuş nüfuzlu Azərbaycan icması var. Onlar ölkəmizi ləyaqətlə təmsil edirlər. Bakıda və Qubada mövcud olan yəhudi icmalarını sıx bağlayan insan amilini də qeyd etmək istərdim. Quba rayonundakı məşhur Qırmızı Qəsəbənin yəhudi icması ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsində unikal rol oynayır. Biz İsrail ilə Azərbaycan arasında münasibətlərin möhkəmləndirilməsi və dərinləşdirilməsi üzrə işimizi davam etdirəcəyik. İsrail-Azərbaycan strateji tərəfdaşlığı bütün regionda sülhə və sabitliyə xidmət edir.

Sonuncu görüşdə müsahibimiz Hikmət Hacıyev oldu

İsrailli jurnalistlərin Azərbaycan paytaxtında sonuncu görüşü Azərbaycan Respublikası Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə oldu. H.Hacıyev görüşdə Azərbaycanın nadir statusu və ölkələrimiz arasında münasibətlərin strateji əhəmiyyəti barədə danışdı.

O dedi: “1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra İsrail ilə Azərbaycan arasında xüsusi münasibətlər yarandı. İsrail Azərbaycanın müstəqilliyini tanımış ilk ölkələrdən biri oldu. Bizim iqtisadi, siyasi, hərbi, mədəni və ticari münasibətlərimiz çox gözəldir. Təl-Əvivdən Bakıya birbaşa aviareyslər açılması sübut edir ki, ölkələrimiz arasında yaxşı sabit münasibətlər var.

Azərbaycan beynəlxalq birliyin tamhüquqlu üzvüdür. Mən həmişə zarafatla deyirəm ki, xəritəyə fikir versəniz, mənim ölkəm Şərqdən Qərbə uçan quşa oxşayır. Lakin uçmaq üçün hər iki qanad lazımdır”.

Beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert Arye Qut İsraildə çıxan nüfuzlu ingilisdilli “The Jerusalem Post” qəzetində dərc olunmuş məqaləsinin sonunda yazır: “Aşkardır ki, İsrail ilə strateji əlaqələr və Ermənistanla ərazi münaqişəsinin ədalətli həlli Cənubi Qafqaz regionunda İsrail Dövlətinin bu etibarlı və mühüm müttəfiqinin prioritetləri siyahısında ilk yerlərdən birini tutur”.

Ulu öndər Heydər Əliyev müasir müstəqil Azərbaycanın xilaskarıdır

İyulun 4-də Yeni Azərbaycan Partiyasının Xəzər rayon təşkilatı və H.Z.Tağıyev adına Neft - Qaz Çıxarma İdarəsinin birgə təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsinin 50 illiyi münasibətilə tədbir keçirildi.

Tədbirdə YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov çıxış edərək bildirdi ki, ümummilli lider Heydər Əliyev hələ Sovet dövründə böyük uzaqgörənliklə və müdrikcəsinə Azərbaycanın gələcək müstəqilliyinə hərtərəfli zəmin yaratdı. Ulu Öndər hakimiyyətə gələnə qədər ən geridə qalan respublikalardan biri sayılan Azərbaycan qısa müddətdə iqtisadi artım tempinə görə orta İttifaq səviyyəsini ötdü. 1969-1982-ci illərdə milli gəlir 2,6, sənaye məhsulu 2,7, kənd təsərrüfatı 2,3 dəfə artdı, 249 yeni iri sənaye müəssisəsi yaradıldı. Ölkənin sənaye potensialı əvvəlki 50 ildəkini 2 dəfə üstələdi. Həmin dövrdə 813 min yeni iş yeri açıldı, xalqımızın güzəranı qat-qat yaxşılaşdırıldı. Məhz o illərdə milli azadlığın və özünüdərkin təbliği istiqamətində atılan addımlar, yaradılan şərait növbəti illərdə öz bəhrəsini verdi. Bu gün Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar öz miqyasına, təsir dairəsinə, əhəmiyyətinə görə heç bir ölkədə müşahidə olunmur. Ulu Öndərin siyasəti bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Milli Məclisin deputatı Rauf Əliyev bildirdi ki, Azərbaycan xalqının keçdiyi çətin və mürəkkəb inkişaf yoluna işıq saçan, onun bugünkü müstəqilliyinin yaranmasında və inkişafında, müasirləşməsində və yeniləşməsində müstəsna xidmətləri olan Heydər Əliyev fenomenini xüsusi qeyd etmək lazımdır. Ölkəmizin dünya birliyinə inteqrasiyası bir daha göstərir ki, Azərbaycanın inkişaf strategiyasını uzaqgörən siyasəti ilə müəyyənləşdirən Heydər Əliyev dühası, zəkası, neçə-neçə onillər üçün hesablanmış perspektivlər ölməz siyasətçinin fədakarlığının nəticəsidir. Bütün məqamlarda insan amilinə diqqəti önə çəkən Prezident İlham Əliyevin islahatçı lider kimi tanınması, müstəsna təşkilatçılığı sayəsində son illərdə qazanılmış nailiyyətlər birmənalı şəkildə ulu öndər Heydər Əliyevin dövlətçilik ideallarına sadiqliyinin parlaq təcəssümü olmaqla hər bir Azərbaycan vətəndaşının qəlbində milli iftixar və ölkəmizin işıqlı gələcəyinə dərin inam hissini daha da gücləndirmişdir.

H.Z.Tağıyev adına Neft-Qaz Çıxarma İdarəsinin rəisi Fəxri Haqverdiyev bildirdi ki, Ulu Öndər öz əməlləri, fəaliyyəti, xalqımıza, dövlətimizə bəxş etdiyi azadlıqlarla əsl xilaskarlıq nümayiş etdirmişdir. Hakimiyyətinin hər iki dövründə xalqa xidmət, Vətənə sədaqət ulu öndər Heydər Əliyevin fəaliyyətinin əsasında dayanıb. Azərbaycanın iqtisadi, sosial inkişaf səviyyəsinə görə bölgənin lideri olması, müasirləşməsi, yeniləşməsi, respublikanı əhatə edən quruculuq işlərinin geniş vüsət alması ümummilli liderimiz Heydər Əliyev ideyalarının hər bir Azərbaycan vətəndaşı tərəfindən həyata keçirildiyinin bariz nümunəsidir. Ulu Öndərin ideyaları bu gün Azərbaycanın əldə etdiyi iqtisadi uğurların, milli mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsi sahəsində çoxşaxəli fəaliyyətin əsasında dayanır.

Tədbirdə çıxış edən gənc neftçilər bildirdilər ki, təməlini Ümummilli Liderin qoyduğu milli dövlətçilik ideologiyası bu gün Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Dövlətimizin başçısının uğurlu daxili və xarici siyasəti sayəsində müstəqilliyi tam təmin olunan Azərbaycan durmadan inkişaf edir, çiçəklənir və qüdrətli dövlətə çevrilir.

✍ **Şəmsiyyə Əliqızı,**
"İki sahil"

Nazir:

ABŞ-Azərbaycan əməkdaşlığı avropalı istehlakçılara yeni mənbədən qazın çatdırılması məqsədinə töhfə verir

Energetika naziri Pərviz Şahbazov "Xəzər Siyasət Mərkəzi"nin idarə heyətinin üzvü Robert Sekuta ilə görüşüb.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə Xəzər regionu ətrafında vəziyyət, qlobal miqyasda enerji sektorunda müşahidə olunan tendensiyalar, eləcə də yeni texnologiyalar və rəqəmsallaşmanın təsirləri ilə bağlı məsələlər müzakirə edilib. Söhbət zamanı Xəzər regionunun enerji və nəqliyyat layihələri ilə inteqrasiya prosesində rolundan bəhs olunub. "OPEC plus" formatında neft bazarının tənzimlənməsi prosesi, Cənub Qaz Dəhlizi layihəsinin icra vəziyyəti və Azərbaycanın energetika sektorunda islahatlara dair hədəfləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Nazir ABŞ-ın Azərbaycanın həyata keçirdiyi enerji layihələrinə, o cümlədən Cənub Qaz Dəhlizinə dəstəyini yüksək qiymətləndirib. Nazir bu əməkdaşlığın avropalı istehlakçılara tezliklə yeni mənbədən qazın çatdırılması və mənbələrin şaxələndirilməsi məqsədinə töhfə verdiyini deyib.

O, həmçinin hazırda bərpaolunan enerji sahəsində və energetika sektorunun liberallaşması istiqamətində qarşıda duran vəzifələr və görülən işlər barədə də ətraflı məlumat verib.

Təmas xəttində nisbi sakitlik müşahidə olunub

Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.

Van Çunqan: Azərbaycan Çinin "Bir kəmər, bir yol" layihəsinin vacib tərəfdaşıdır

Azərbaycan Çinin "Bir kəmər, bir yol" layihəsinin vacib tərəfdaşlarındandır.

Bu barədə Çinin Azərbaycandakı səfirliyinin ticarət və iqtisadi məsələlər üzrə müşaviri Van Çunqan deyib.

O qeyd edib ki, energetika, ticarət, turizm və kənd təsərrüfatı sahələrində əməkdaşlıq daimi genişlənir. Forum iki ölkə arasında əlaqələrə töhfə verəcək.

Çin rəsmisi, həmçinin Azərbaycanın iş adamlarını Çində ixrac sərgisində iştiraka dəvət edib.

YAP Nizami rayon təşkilatının gəncləri humanitar aksiyada iştirak ediblər

Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatı Gənclər Birliyinin üzvləri də YAP-ın təşəbbüsü ilə həyata keçirilən "Aztəminatlı ailələrə qayğı" aksiyasına qoşularaq rayon ərazisində yaşayan şəhid ailələrinə, əlillərə və tənhalara sovqat paylayıblar.

Aksiya çərçivəsində gənclər və partiya fəalları müvafiq kateqoriyadan olan ailələrlə görüşüb, onların vəziyyəti ilə maraqlanıblar.

Gənclər, eyni zamanda, tənha yaşayanlara ev işlərində də köməklik ediblər, təmizlik işləri görüblər.

Eyni zamanda, vurğulanıb ki, öz fəaliyyətində daim sosial istiqaməti prioritet elan edən YAP sosial-iqtisadi inkişafla bağlı davamlı olaraq müxtəlif layihələr həyata keçirir. Belə fəaliyyətlərdən biri də xüsusi qayğıya ehtiyacı olan şəxslərin, o cümlədən şəhid ailələrinin, əlillərin və tənhaların daim diqqətdə saxlanılması, onların qarşılaşdıqları problemlərin həllidir.

Ziyarət olunan şəxslər onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər. Qeyd ediblər ki, həyata keçirilən bu cür aksiyalar onların sosial rifahlarının yüksəldilməsinə töhfə verməklə yanaşı, xoş əhval-ruhiyyə yaradır.

✍ **Ceyhun Piriyev,**
"İki sahil"

Rusiya onlayn qadın jurnalı Bakıda unudulmaz yay istirahəti vəd edir

Rusiyanın "MyJane.ru" onlayn qadın jurnalı Bakıda yay istirahətinə həsr olunmuş məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, müəllif Natalya Qrişko oxucularına Bakıda unudulmaz yay istirahəti vəd edir. O, Azərbaycan paytaxtının qədim və müasir memarlığı, şəhərətrafı çimərlikləri, tarixi abidələri, İçərişəhər, Bakı bulvarı barədə məlumat verib. Oxucularını təkcə paytaxtda deyil, Azərbaycanın digər guşələrində də istirahətə dəvət edən müəllif yazır ki, burada yay istirahətinin rəngarəng keçəcəyinə əmindir.

AMEA-da "Məzun Günü"

Dünən Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) magistrlərinin "Məzun Günü" keçirilib. Tədbirdə AMEA rəhbərliyi, respublikanın aparıcı təhsil müəssisələrinin rektorları və digər dövlət qurumlarından nümayəndələr iştirak ediblər.

Dövlət himninin səsləndirilməsindən sonra çıxış edən məzunlar Azərbaycan Milli Elmlər Akademiyasında magistratura təhsilinin sabahın alimlərinin, yüksək ixtisaslı kadrların yetişdirilməsindəki rolundan bəhs ediblər. Bildiriblər ki, AMEA-nın elmi müəssisələrində aparılan elmi-tədqiqat fəaliyyətinin tədris prosesinə nüfuz etməsi, qabaqcıl alimlərlə tələbələr arasında bilik və təcrübə mübadiləsinin aparılması sayəsində nəzəri biliklərin təcrübədə tətbiqi elmdə innovativ nəticələrin əldə olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Sonra AMEA-nın akademik-katibi, müxbir üzvü Əminağa Sadıqov Akademiyada magistraturanın yaranma tarixindən danışıb. Yarandığı qısa müddətə baxmayaraq magistraturaya maraq və tələbin getdikcə artdığını deyən Ə.Sadıqov statistikanı auditoriyanın diqqətinə çatdırıb: "2015-ci ildə AMEA-nın magistraturasına 19 tələbə qəbul edilib. 2016-cı ildə 9 ixtisas üzrə 56 tələbə, 2017-ci ildə 12 ixtisas üzrə 67 tələbə, ötən il 19 ixtisas üzrə 67 tələbə, bu il isə 43 ixtisas üzrə 121 tələbə magistraturaya daxil olub". Akademik-katib bu gün AMEA-dan 12 ixtisas və 37 ixtisaslaşma üzrə 63 magistrin məzun olduğunu bildirib. Cari ildə tədris prosesinə 8 akademik, 23 müxbir üzv, 82 elmlər doktoru və 141 fəlsəfə doktorunun cəlb olunduğunu deyən Ə.Sadıqov 4 akademik, 6 müxbir üzv, 24 professor və 29 dosentin magistrantların tədqiqat işlərinə elmi rəhbərlik etdiyini vurğulayıb.

Ötən illər ərzində AMEA-nın magistratura pilləsi üzrə təhsil siyasətində yeniliklər və əldə olunan nailiyyətlər, Akademiyanın magistratura fəaliyyətinin üstün cəhətləri barədə məlumat verən Ə.Sadıqov baza kafedralarının, eləcə də AMEA-nın müasir elmi-tədqiqat laboratoriyaları, tədris auditoriyaları, zəngin elmi kitabxanası, təcrübə və istehsalat sahələrinin magistrantlara öz təhsillərini və elmi-tədqiqatlarını yüksək səviyyədə başa vurmaları üçün geniş imkanlar açdığını deyib. AMEA-nın maddi-texniki tədris bazasının daha da təkmilləşdirildiyini söyləyən akademik-katib tədris prosesinin operativliyini və effektivliyini təmin etmək məqsədilə atılan addımlardan danışıb. Natiq AMEA-nın magistraturasını bitirən və təhsil aldığı müddətdə bilik və bacarığına görə fərqlənən tələbələrin məzun olduqdan sonra AMEA-da əmək fəaliyyətlərini davam etdirdiklərini söyləyib: "Hazırda məzun olmuş 75 nəfərdən 51-i AMEA-nın əməkdaşıdır. Əmək fəaliyyəti ilə yanaşı, yüksək səviyyədə öz təhsillərini alan məzunların 6-sı xaricdə olmaqla, 44 nəfəri doktorantura səviyyəsində uğurla davam etdirir. Bu da Azərbaycanda elmin varisliyinin qorunması baxımından olduqca vacibdir".

Fizika İnstitutunun Bərk cisimlər fizikası ixtisası üzrə magistri Səidə Nuriyeva Akademiyada aldığı təhsillə bağlı təəssüratlarını bölüşüb: "AMEA bizə görkəmli alimlərimizlə, elmimizi dünyaya tanıdan məşhur elm xadimləri ilə ünsiyyətdə olmağa, onların dəyərli məsləhətlərini alaraq gələcəyə inamla addımlamağımıza, ixtisasımızın dərinliklərini öyrənməyə əlverişli zəmin yaratdı. Akademiyada biz tədqiqat işlərimizi həyata keçirmək üçün lazımi cihazlarla təchiz olunmuş laboratoriyalarda rahatlıqla işləmək imkanı əldə etdik. Bu isə Azərbaycan Milli Elmlər Akademiyasındakı magistr təhsilinin digər universitetlərdəki magistr təhsilindən fərqləndiyini göstərən başlıca səbəbdir".

Daha sonra nanomateriallar kimyası üzrə məzun Rüfət Əsədzadə çıxış edərək Azərbaycan Milli Elmlər Akademiyasından məzun olmağından və böyük alimlərin əhatəsində olub onlardan dərs almaqdan qürur duyduğunu deyib. R.Əsədzadə nanokimya ixtisasının son dövrün aktual elm sahəsi olduğunu söyləyib: "Bu istiqamət son dövrün ən önəmli tədqiqat sahələrindən biridir. Bu il 90 yaşı tamam olan Neft-Kimya Prosesləri İnstitutunda lazımi bilikləri əldə etmək, çalışmaq böyük şərəf idi. Biz müasir dünyanın çağırışlarına cavab verən alimlərdən olmaq istəyiriksə, təhsilimizdə modernləşmə sabaha hesablanmalıdır. Biz gənclər ölkəmizin tərəqqisi, beynəlxalq sferada nüfuzunun artırılması, respublikanın ərazi bütövlüyünün bərpa olunması naminə aparılan işləri öz elmi nailiyyətlərimiz ilə dəstəkləməliyik".

Daha sonra Riyaziyyat və Mexanika İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Misir Mərdanov, Fizika İnstitutunun laboratoriya müdiri, fizika-riyaziyyat elmləri doktoru Mirbaba Babayev, Neft-Kimya Prosesləri İnstitutunun direktoru, akademik Vaqif Abbasov institutlarda magistrlərin keyfiyyətli təhsil alması üçün yaradılan imkanlardan söz açıblar.

Tədbirin sonunda AMEA-nın prezidenti, akademik Akif Əlizadə magistrləri təhsillərini uğurla başa vurmaları münasibətilə təbrik edib, bu günün Azərbaycan elm tarixində bayram olduğunu deyib. Bu uğurların dövlətin diqqət və qayğısı nəticəsində əldə olunduğunu vurğulayan akademik Akif Əlizadə AMEA-da magistratura təhsilinin başladılması ilə güclü elmi potensialın toplandığını, gənc alimlərin səsinin dünyanın müxtəlif ölkələrindən gəlməsi ilə elmimizin dünyaya çıxışının təmin olunduğunu qeyd edib.

Sonda məzunlara diplomlar təqdim olunub.

✍ **Taleh Bağırov, *"İki sahil"***

Əyyub Əyyubov:

Nəzarət müdaxilə deyil, idarəçilik formasıdır

Turizm iqtisadiyyatımızın güclənməsi, bölgələrimizin inkişafı və ölkəmizin dünyada tanıdılması baxımından çox əhəmiyyətli bir sahədir. Bu səbəbdən turizmin inkişafı üçün yeni yollar axtarılır, həmçinin mövcud potensialdan istifadə ön plana çəkilir. Son günlər bu sahə ilə bağlı irəli sürülən təkliflərlə, eləcə də digər məsələlərlə əlaqədar Mingəçevir Turizm Kollecinin direktoru, iqtisad elmləri doktoru, professor Əyyub Əyyubova bir neçə sualla müraciət etdik.

- Əyyub müəllim, son illər turizm sektorunun inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu mənada ölkəmizdə turizmin inkişafını necə dəyərləndirərdiniz?

- Son illər dünyada turizm ənənələri dəyişdi, yeni xidmət kriteriyaları ortaya çıxdı. Bu mənada turizm sahəsinə yeni strateji yanaşma nümayiş etdirilmədən ölkə turizmini qabaqcıl mövqelərə çıxarmaq mümkün görünmürdü. Odur ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu islahatlar sayəsində respublikamızda yeni turizm infrastrukturları yaradıldı. Yollar, tarixi abidələr bərpa olundu, yeni hava, dəniz limanları, dəmir yolu vağzalları, otellər, yay-qış istirahət kompleksləri, idman və mədəniyyət obyektləri tikildi, turizmin inkişafını nəzərdə tutan Strateji Yol xəritəsi qəbul olundu. Bunlarla paralel olaraq ölkəmizdə biri-birinin ardınca beynəlxalq səviyyəli mötəbər festival, sərgi, konfrans, simpozium, idman və musiqi yarışmaları keçirildi ki, nəticədə dünya ictimaiyyəti Azərbaycanı, belə demək mümkünsə, yenidən kəşf etdi. Bütün bunlar, eləcə də dayanıqlı siyasi sabitlik və inkişaf Azərbaycanın ən cəlbedici turizm məmləkətlərindən birinə çevrilməsinə yol açdı. Bir məqamı da xüsusi vurğulamaq istərdim. Bu istiqamətdə aparılan islahatlar, qəbul olunan qərarlar və icra edilən genişmiqyaslı layihələr regional turizmin, eləcə də regionların iqtisadi inkişafına yeni təkan verdi.

Yeri gəlmişkən, qeyd edim ki, qeyri-neft sahəsinin aparıcı qollarından olan turizmin inkişafı nəticəsində ölkəmizi ziyarət edən əcnəbi turistlərin sayı da ilbəil, aybaay artır, həm də onların təmsilçilik coğrafiyası genişlənir. Məsələn, Dövlət Statistika Komitəsinin ölkə turizminə aid Dövlət Sərhəd Xidmətinə istinadən yaydığı məlumata görə, cari ilin yanvar-may aylarında Azərbaycana dünyanın 180 ölkəsindən 1 milyon 94,8 min və ya 2018-ci ilin yanvar-may ayları ilə müqayisədə 3,7 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Təbii ki, turizm potensialına malik hər bir ölkə çalışır ki, daha çox turisti cəlb etsin, onlar üçün şərait yaratsın. Bu mənada ölkəmiz əldə olunan bu kimi nailiyyətlərlə kifayətlənmir. Ona görə də turizm sektorunun sistemli şəkildə inkişafı ilə bağlı tədbirlərin görülməsi davam etdirilir.

- Bəs Mingəçevirdə turizmin inkişaf dinamikası ilə bağlı nə deyə bilərsiniz?

- Mingəçevir əzəldən turizm potensialı olan bölgələrdən və şəhərlərdən biri olub. Mingəçevir su anbarının timsalında zəngin su hövzəsi burada çimərlik turizmi üçün ən arzuolunan inkişaf perspektivləri yaradıb. Üstəlik, Kür çayının əsrarəngiz mənzərəsi... Şübhəsiz, dövlət başçısının təşəbbüsü ilə Kür Olimpiya Tədris İdman Mərkəzinin inşası Mingəçevirin turizm imkanlarını daha da genişləndirib. Bildiyiniz kimi, bu şəhər avarçəkmə idman növünün təlim məşq toplantıları üçün ideal məkan hesab olunur. Rusiya, Almaniya, Gürcüstan və digər ölkələrin milliləri və ayrı-ayrı

avarçəkmə komandaları təlim məşq toplanışları üçün ilboyu məhz Mingəçeviri və onun Kür bazasını seçirlər. Xatırlayırsınızsa, I Avropa Oyunları zamanı avarçəkmə yarışları da məhz Mingəçevirdə keçirilib.

Zənnimcə, bu istiqamətdə işləri əslində daha da genişləndirmək olar. Belə ki, şəhər çimərlikləri ərazisində müasir istirahət-əyləncə kompleksləri yaratmaq və digər təşəbbüslərlə çıxış etmək olar. Məsələn, Mingəçevir və ətraf ərazilər ovçuluq, xüsusilə də quş ovu turizmi üçün əlverişli imkanlara malikdir. Vaxtilə bir çox ölkələrdən bu məqsədlə şəhərə üz tutan çox sayda əcnəbi turistlər olub. Xidməti modernləşdirmək və düzgün təbliğat aparmaqla bu turizm sahəsini yenidən canlandırmaq doğru olardı. Bir də ki, Mingəçevirin Qəbələ, Şəki-Zaqatala, Gəncə-Göygöl, Goranboy-Naftalan turizm bölgələrinə yaxın olması yeni turizm marşrutlarının yaradılması üçün əsas ola bilər. Bu, həm daxili, həm də xarici turizm üçün sərfəli ideyadır.

- Əyyub müəllim, turizm obyektlərində turistlərə layiqli xidmət göstərmək üçün ixtisaslı kadrların olması da vacibdir.

- Xidmət məsələsinə gəldikdə birmənalı şəkildə deyə bilərəm ki, rəhbərlik etdiyim Mingəçevir Turizm Kolleci illərdir ki, bu sahə üzrə söz sahibidir. Yəni yetişdirdiyimiz ixtisaslı mütəxəssislər istənilən vəzifəni çiyinlərində daşımaqla bölgədə turizmin inkişafına töhfə verə bilirlər. Artıq onlar öz işləri ilə etimadı doğruldurlar.

- Bu günlərdə Turizm Agentlikləri Assosiasiyasının təqdimatı keçirildi. Bu, turizmin inkişafına hansı töhfələr verə bilər? Yeri gəlmişkən, Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev bildirib ki, turizm şirkətlərinin fəaliyyətinə nəzarət mexanizminin yaradılmasına yenidən zərurət yaranıb. Bu, günün tələbidir, yoxsa inkişaf bunu tələb edir?

- O ideyalar ki, aidiyyəti qurumları vahid məqsəd naminə bir araya gətirə bilir, birmənalı şəkildə onlardan ikiəlli yapışmalıyıq. Bu mənada hesab edirəm ki, Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının təqdimatı irəliyə doğru atılmış uğurlu addımlardan biridir. Əslində Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevin istək və məqsədinin arxasında da fikrimcə yeni hədəflər dayanır. Yəni söhbət turizm şirkətlərinin fəaliyyətinə ümumi nəzarət mexanizmindən gedir. Onu da deyim ki, nəzarət müdaxilə deyil, idarəçilik formasıdır. Hər bir şirkət, yaxud qurum özünəməxsus özəlliklərə sahib olduğunu göstərmək, rəqabətyönlü xidmətini təkmilləşdirmək və digər fərqli fəaliyyət formaları tətbiq etmək səlahiyyətinə malikdir. Amma söhbət ümumən ölkə turizminin imicindən, qarşıya qoyulan prioritet vəzifələrin icrasından və vacib qaydalara riayət məsələsindən gedirsə, təbii ki, burada vahid nəzarət mexanizmi vacib şərt kimi qəbul edilməlidir. Bu cür yanaşma və xidmət tərzi yalnız inkişafa aparar.

- Dövlət Turizm Agentliyinin Aparat rəhbəri Kənan Qasımov isə belə bir açıqlama verib ki, Azərbaycanda turistlərin problemlərinin dinlənilməsinə və həllinə kömək məqsədilə Turizm Polisi də yaradılacaq.

- Turizmin inkişaf etdiyi ölkələrdə diqqət çəkən strukturlardan biri də Turizm Polisi ilə bağlıdır. Polis hər zaman polisdir. Amma unutmayaq ki, bu sahədə çalışacaq mütəxəssislərin təhsili və peşəkar hazırlığı önəmli məsələlərdən biridir. Bununla belə, öyrəncəli olduğumuz və gecə-gündüz asayişin keşiyində dayanan polis əməkdaşlarından fərqli olaraq, turizm polislərinin bacarıq və məsuliyyəti bir qədər də fərqli olmalıdır. Bu polislər, həm də xarici dil vərdişlərinə yiyələnməlidirlər. Eyni zamanda, onlarda dünya xalqlarının fərqli mədəniyyətləri haqqında məlumat olmalıdır ki, xidmət prosesində ən müasir bəşəri üstünlükləri nümayiş etdirə bilsinlər. Bu mənada iyirmi dörd saat boyunca turistlərin ehtiyaclarını təmin etmək, yaranacaq problemlərinin həllinə çevik müdaxilə etmək turizm polislərindən xüsusi hazırlıq tələb edir. Yeri gəlmişkən, dünya təcrübəsindən bunun bir çox müsbət örnəklərinə şahidik. Hesab edirəm ki, istər polis məktəbləri, istərsə də Polis Akademiyasında turizm polisi ixtisaslarının yaradılması, xüsusi dərsliklərin təşkili artıq günün tələbidir. Şübhəsiz, turizm polisinin formalaşdırılması daxili turizmin dayanıqlı inkişafına da təkan və önəmli töfhə verə bilər. Yeri gəlmişkən qeyd edim ki, biz təhsil müəssisəsi olaraq çoxsaylı beynəlxalq təhsil proqramlarında iştirakımız sayəsində əldə etdiyimiz təcrübəyə istinadən hələ illər öncə belə bir təklif səsləndirmişdik.

- Azərbaycanda dövlət reyestrinə daxil olacaq turizm şirkətlərinin sığortalanması məsələsi də gündəmdədir. Sizcə, bu təklif qəbul olunacağı təqdirdə turizm şirkətlərinin buna marağı nə dərəcədə olacaq?

-Qarşılarına hədəflər qoyan turizm şirkətləri, təbii ki, bu imkanlardan həvəslə istifadə etməyə çalışacaqlar. Çünki qəbul olunmuş beynəlxalq normativlərdə də sığorta zəruri hal hesab edilir. Şübhəsiz, sığortalı şirkət sığortalanmayandan daha etibarlı və yüksək kateqoriyalı hesab olunacaq. Təminatı hüquqi sığortaya söykənən şirkətə turist marağı artacaq və bu da həmin turizm şirkətinin nüfuzunun artması ilə nəticələnəcək. Elə düşünürəm ki, hətta bu işə istəklə yanaşmayan şirkətlər də sonradan haqsız olduqlarının fərqinə varacaq və sığorta təminatlı şirkətlər sırasında yer almağa meyillənəcəklər. Əks halda, onlar rəqabətə davamlı şirkətlər sırasında möhkəmlənə bilməyəcəklər.

✍ **Qvami Məhəbbətoğlu, *"İki sahil"***

İqtisadi islahatlar sosial rifah gətirir

Azərbaycanda iqtisadi islahatların ən yeni mərhələsi məhz 2018-2019-cu illəri əhatə edir. Bu dövrdə iqtisadiyyatdakı liberal dəyərlər, azad fəaliyyət, şəffaflıq daha da genişlənərək sahibkarlara, fiziki şəxslərə geniş fəaliyyət imkanları yaradıb ki, bu da istehsalın daha da artmasına, yeni iş yerlərinin açılmasına səbəb olub. 2019-cu ildə vergi sahəsində aparılan islahatlar imkan verir ki, vətəndaşlar daha çox qazansınlar, onların bizneslərі genişlənsin.



Eyni zamanda, son bir il ərzində vətəndaşların məşğulluq probleminin həlli və sahibkarlığın inkişafı üçün bir çox qurumlar yaradıldı. KOBİA, ABAD kimi sosial və iqtisadi inkişafa yardım edən bu qurumların geniş fəaliyyəti üçün dövlət maliyyə dəstəyini əsirgəmədi.

KOBİA - İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyidir və ölkəmizdə sahibkarlığın, xüsusilə də kiçik və orta biznesin inkişafına dəstək verir.

ABAD (Ailə Biznesinə Asan Dəstək) isə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində publik hüquqi şəxs kimi yaradılıb. Qurum kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək vermək məqsədilə fəaliyyətdədir.

Həmçinin kənd təsərrüfatı sahəsindəki islahatlar da imkan verib ki, qeyri-neft sektorunun ÜDM-dəki payı artsın və ixrac potensialımız genişlənsin. Ən mühüm məqam isə kənd təsərrüfatında ixrac məhsullarının istehsalının artırılması oldu. Nəticədə 2018-ci ildə 2017-ci ilə nisbətən ölkəmizin qeyri-neft sektorunda ixrac 47 faiz artdı.

Qeyd edək ki, ötən il dünyanın aparıcı beynəlxalq təşkilatları, tanınmış siyasətçiləri və iqtisadçıları Azərbaycanın həyata keçirdiyi iqtisadi islahatları inkişaf etməkdə olan ölkələr üçün nümunə kimi göstərdilər. Məsələn, 2017-ci ildə Dünya Bankı tərəfindən hazırlanan "Doing Business-2018" hesabatında Azərbaycan dünyada iqtisadi islahat aparan 29 ölkə arasında qərarlaşıb. Avrasiyada isə bu göstərici üzrə ilk üçlükdə olub. Həmçinin 2018-ci il Dünya İqtisadi Forumu tərəfindən nəşr olunan "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda da Azərbaycan əmək bazarının səmərəliliyi üzrə göstəricidə 9 pillə irəliləyib. Digər önəmli məsələ isə odur ki, Azərbaycan ötən ildə bütün inkişaf kateqoriyalarına görə MDB ölkələri arasında birinciliyini qoruyub saxlayıb. Diqqətçəkən digər məsələ isə odur ki, son 16 ildə Azərbaycan dövləti hətta G20-yə daxil olan bəzi ölkələrin iqtisadi inkişaf göstəricilərini üstələyib.

Təbii ki, ötən illərdə qazanılan iqtisadi uğurlar növbəti illər üçün də inkişaf tendensiyası yaradır. "Standard&Poor's" (S&P) beynəlxalq reytinq agentliyinin də hesabatında gələcək üç il ərzində inkişaf edəcək ölkələrin ilk sıralarında Azərbaycanın da adı var. Hesabatda 2019-cu il Azərbaycan iqtisadiyyatında inkişaf ili kimi dəyərləndirilir və 2019-2020-ci illərdə ölkəmizdə ÜDM istehsalının daha 3,5 faiz artması proqnozlaşdırılır. Rəqəmlərlə ifadə edilsə ÜDM-in artımı bu qədər olacaq - 2019-cu ildə 3,5 faiz (47 milyard dollar), 2020-ci ildə 3,5 faiz (48 milyard dollar).

Azərbaycanın iqtisadi inkişafının dünyanın ən mötəbər reytinq cədvəllərində yer alması bilavasitə Prezident İlham Əliyev tərəfindən aparılan kompleks iqtisadi islahatlara beynəlxalq aləm tərəfindən verilən ən yaxşı dəyərdir. Eyni zamanda, beynəlxalq aləmdə iqtisadi inkişaf reytinqimizin yüksəlməsi ölkəmizə investisiya axını yaradacaq çox böyük fürsətdir.

✍ **Elçin Zaman,**
"İki sahil"

Yunus Oğuzun romanı



Dünən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda yazıçı-publisist, tarixçi-alim Yunus Oğuzun növbəti tarixi "Səfəvi Şeyxi" kitabının elmi müzakirəsi keçirilib.

Əvvəlcə AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli Yunus Oğuzun çağdaş Azərbaycan ədəbiyyatındakı rolundan danışıb. Bildirib ki, Yunus Oğuz müstəqillik dövründə Azərbaycan ədəbiyyatında tarixi romanın əsas yaradıcılarından biridir: "Yunus Oğuzun tarixi mövzuda yazdığı romanların sayı 10-dan çoxdur. Hansı ki, bu əsərlərdə Azərbaycanın dövlətçilik tarixi, milli dövlətçilik təfəkkürü, azərbaycançılıq ideyaları hər zaman ön mövqedə dayanaraq aparıcı xətti təşkil edir. Yunus Oğuzun romanlarında tarixlə bədii düşüncənin balansı ustalıqla gözlənilir, tarixi faktlar, reallıqlar qorunaraq bədiiləşdirilir. Ümid edirəm ki, yazarın "Səfəvi Şeyxi" tarixi romanı digər əsərləri kimi ədəbiyyatsevərlər tərəfindən maraqla qarşılanacaq".

Sonra Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu "Yunus Oğuzun romançılığı: tarixdən belletristikaya" mövzusunda məruzə edib. Məruzədə qeyd edib ki, "Səfəvi Şeyxi" aktual mövzudadır, o, oxucunu tarixlə yükləmək istəmir: "Nadir şah, Təhmasib şah, Əmir Teymur, Sultan Alp Arslan, Atabəy Eldəniz kimi obrazlar yaratmış yazıçı bu əsərinin də texnologiyasını rahat qurub".

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Lalə Həsənova müzakirə olunan romanı orijinal təhlil edib. Tədqiqatçı xatırladıb ki, əsərdə hadisələr XV əsrdə baş verir və əsas qəhrəman Şeyx Cüneyddir: "Kitabda əsas olan Şeyx Cüneydin ideyalarıdır, bu ideyalar yayılır. O həm də mənəvi dəyərlərə sahib çıxan bir sərkərdə kimi təqdim olunur. Romanda folklor elementləri, bayatılar, əfsanələr geniş yer alıb. Eyni zamanda, dini kitablardan sitatlara və dastanlarda olduğu kimi ilahi eşqə də yer ayrılıb. Şeyxin xarakterinin açılması üçün dialoqlara və yuxulara geniş yer verilib".

Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, akademik Nizami Cəfərov çıxışında bildirib ki, yazıçının ustalığı ilk növbədə özünü tarixi həqiqəti olduğu kimi təqdim etməsində göstərir: "Yunus Oğuzun "Səfəvi Şeyxi" tarixi romanını əvvəlki əsərlərindən üstünlüyü ondan ibarətdir ki, burada tarixin gedişinə daha çox diqqət ayrılır. Əsərdə Üçkilsə ilə bağlı maraqlı məqamlara, erməni ideologiyasının formalaşdırılması məsələlərinə toxunulur".

Elmi müzakirədə çıxış edənlərdən Ədəbiyyat İnstitutunun əməkdaşları, filologiya üzrə fəlsəfə doktorları Lalə Həsənova, Elnarə Qaragözova və digərləri romanının həm ədəbiyyatımıza, həm də tariximizə qiymətli töhfə olduğunu bildiriblər.

Milli Məclisin deputatı və Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov, Milli Məclisin digər deputatı, professor Elman Nəsirov, Azərbaycan Yazıçılar Birliyinin katibi, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid romanının məziyyətlərindən danışıblar.

Sonda Y.Oğuz iştirakçılara imzalı kitab hədiyyə edib.

✍ **Taleh Bağırov,**
"İki sahil"

"Əbədi ezamiyyət"

AVROPA ŞURASINDA SƏNƏDLİ FİLM NÜMAYİŞ ETDİRİLİB

Strasburqda Avropa Şurasının mənzil-qərargahında Heydər Əliyev Fondunun dəstəyi və Arzu Əliyevanın baş prodüserliyi ilə Bakı Media Mərkəzi tərəfindən çəkilmiş "Əbədi ezamiyyət" sənədli filmi nümayiş etdirilib.

Trend-in məlumatına görə, Azərbaycanın diplomatik xidmət orqanlarının 100 illiyi münasibətilə ölkəmizin Avropa Şurası yanında daimi nümayəndəliyinin təşkilatçılığı və Bakı Media Mərkəzinin dəstəyi ilə reallaşmış təqdimatda diplomatik korpus və təşkilatın əməkdaşları, eləcə də yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəliyinin rəhbəri Fəxrəddin İsmayılov ölkəmizin diplomatik xidmət orqanlarının yaranması tarixindən və qısa müddətdə gördüyü işlərdən danışıb. O, "Əbədi ezamiyyət" sənədli filmi barədə məlumat verərək bildirib ki, ekran əsəri Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq miqyasda tanıdılması məqsədilə 1919-cu ilin yanvarında parlamentin sədri Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə Paris Sülh konfransına ezam olunmuş nümayəndə heyətinin taleyindən bəhs edir. Ekran əsəri xalqımızın dünyəvi və demokratik dəyərlərə XX əsrin əvvəlindən sahib olduğunu göstərir.

Sənədli filmin nümayişi tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb. Sonda tədbir iştirakçılarına "İRS" jurnalının Azərbaycan diplomatiyasının 100 illik yubileyinə həsr olunmuş xüsusi nömrəsi təqdim edilib.

SOCAR-ın TENDERLƏRİ

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

"Azneft" İstehsalat Birliyi

quyuiçi avadanlığa olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsinin (11104AM-19) vaxtının uzadılmasını elan edir.

I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);

* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);

* Müsabiqə təklifinin təminatı (forma əsas şərtlər toplusunda veriləcəkdir) ;

* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 23.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan,ingilis və ya rus dillərində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır. Göstərilmiş tarixdən gec edilmiş ödəniş və müraciətə baxılmayacaqdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 30.07.2019-cu il, Bakı vaxtı ilə saat 12:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri müvafiq etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə birlikdə qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

* İştirakçının inzibati binaya buraxılışını təmin emtək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.

III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dilində əldə etmək istəyənlər istəyənlər LOT-1 üçün 1180 AZN (ƏDV daxil), və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120 AZN,
AZ28IBAZ38110018409306332120 USD,
AZ08IBAZ38110019789306332120 EUR,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

* Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, Lot nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır.

IV. Müqavilənin icra müddəti:

* Satınalma müqaviləsinin şərtlər toplusunda qeyd olunan qrafik üzrə yerinə yetirilməsi tələb olunur.

V. Müsabiqə təklifinin təminatı:

I. LOT-1 üzrə İddiaçının müsabiqə üzrə 32 000.00 AZN təminat tələb olunur.

II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.

III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.

IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.

V. Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

VI. Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

VI. Satınalan təşkilatın ünvanı:

AZ1000, Bakı şəhəri, Səbail rayonu Neftçilər prospekti, 73
Əlaqələndirici şəxs: Orucov Mirismayıl
Satınalmalar və təchizat şöbəsi, ekspert
+99450 841 12 62
+99412 521 12 62
+99412 521 11 72
Mirismayil.orucov@socar.az

VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:

Zərflərin açılışı 30.07.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 12:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

IX. Müsabiqənin nəticəsi haqqında məlumat:

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:

http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

"Azneft" İstehsalat Birliyi

strukturuna daxil olan qurumların 2019-cu il üçün yanğınsöndürmə vasitələrinə tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11108AM-19) elan edir.

I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);

* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);

* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 01.08.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla.08.08.2019-cu il, Bakı vaxtı ilə saat 12:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

* İştirakçının inzibati binaya buraxılışını təmin emtək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.

* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, ingilis və ya rus dilində əldə etmək istəyənlər Lot1 üzrə 118,00AZN, Lot1 üzrə 118,00AZN və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X
Intermediary Bank:Deutsche Bank Trust
Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD
Intermediary Bank:Commerzbank AG,
Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

IV. Müqavilənin icra müddəti:

* Satınalma müqaviləsinin 60 təqvim günü yerinə yetirilməsi tələb olunur.

V. Müsabiqə təklifinin təminatı:

I. 3 500,00 AZN miqdarında təminat tələb olunur.(LOT 2)

II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.

III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.

IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.

V. Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

VI. Satınalan təşkilatın ünvanı: AZ1000, Bakı şəhəri, Səbail rayonu; Neftçilər prospekti, 73;
SOCAR, Azneft İB
Əlaqələndirici şəxs: Səməd Əsədov
Satınalmalar və Təchizat şöbəsi, ekspert
korporativ telefon nömrəsi: +99412 5211153
korporativ mobil nömrəsi: +99450 8411153
korporativ elektron ünvanı: samad.asadov@socar.az

VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:

Zərflərin açılışı.08.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 12:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

IX. Müsabiqənin nəticəsi haqqında məlumat:

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu

ERMƏNİSTANIN SEÇİMİ: qeyri-müəyyənlik yeni mərhələdə

Ekspertlər Ermənistanda son dövrlərdə müşahidə edilən proseslərin geosiyasi qiymətləndirilməsində ziddiyyətli məqamların mövcudluğunu vurğulayırlar. Konkret olaraq, R.Koçaryanın yenidən həbs edilməsi və AŞPA-da Rusiya məsələsinin müzakirəsi zamanı erməni deputatların müəmmalı davranışı fonunda müxtəlif proqnozlar irəli sürülür. Hesab edilir ki, rəsmi İrəvan konstruktiv və reallığa uyğun hərəkət etmir. Bunun mümkün nəticələri kimi Ermənistanın daha ciddi geosiyasi təcrid vəziyyətinə düşməsi göstərilir. Daxildə isə proseslərin gərginliyi artdıqca sosial partlayışın mümkünlüyü istisna edilmir. Bütün hallarda Ermənistanda siyasi böhranın dərinləşməsi fonunda xarici siyasətdə qeyri-müəyyənliyin də yüksəldiyi müşahidə edilir. Həmin kontekstdə bir sıra məqamlar üzərində geniş dayanmağa ehtiyac görürük.

Hakimiyyətin mart sindromu: Ermənistan hüquq sisteminin ziddiyyətləri

Robert Koçaryan həbs edildikdən sonra Rusiya-Ermənistan münasibətləri haqqında daha çox neqativ tonda danışmağa başlayıblar. Rusiyalı ekspertlər Vladimir Putinin şəxsən telefonla danışdığı və ad günü münasibətilə təbrik etdiyi R.Koçaryanı İrəvan məhkəməsinin yenidən həbsə atması səbəblərini analiz etməyə çalışırlar. Maraqlıdır ki, bu hadisəni AŞPA-da Rusiya ilə bağlı səsvermədə Ermənistan nümayəndə heyətinin davranışı ilə də əlaqələndirməyə çalışır, daha konkret desək, hər iki hadisəni düşünülmüş şəkildə Rusiyaya qarşı atılmış addım kimi qiymətləndirirlər.

Problemin mahiyyəti doğrudan da dərin geosiyasi məqamlarla bağlıdır. Rəsmi İrəvan son iki ildə çox qeyri-müəyyən, məntiqsiz və riskli xarici siyasət yeridir. Nikol Paşinyan müstəqillik və demokratiya adı altında müasir tələblərə cavab verməyən və izahedilməz addımlar atır. Məsələ heç də onun Qərb və ya Rusiyaya meyl etməsi ilə bağlı deyil. Ermənistanın xarici siyasətində "müstəqillik", "suverenlik" kimi anlayışlar orta əsr təfəkkürü ilə təqdim edilir. Onun məzmunu belədir ki, kim Ermənistanın şovinist, işğalçı və tamamilə quldurluq və banditlik ruhlu istəklərinə razıdırsa, "sivil" və "mədəni", bununla razılaşmayanlar isə düşməndirlər. Məhz həmin düşüncə ilə də Ermənistan Rusiya, Belarus və Qazaxıstandan Azərbaycanla əməkdaşlığı dayandırmağı tələb etməyə cəhd göstərdi. Və lazımi cavabını alıb, lal oldu.

Bundan başqa, N.Paşinyan İrana və Avropaya səfərlərində radikal tərzdə müasir hökumət başçısına yaraşmayan məntiqlə Azərbaycan və Türkiyəni müəyyən məqamlarda ittiham etməyə çalışdı. Hətta İranda Azərbaycanın ərazi bütövlüyünə hörmətsiz yanaşmanı ifadə edən yüngül hərəkətlər belə etdi. Bu, İran cəmiyyətində geniş etiraz yaratdı və Tehran bir sıra məqamları izah etməli oldu. Bununla N.Paşinyanın xırda bir radikal olmasına şübhə yeri qalmadı. Amma məsələ bundan ibarətdir ki, bəzi dairələr onun bu zəifliyindən istifadə edərək Cənubi Qafqazı qarışdırmağa davam edir.

Biz R.Koçaryanın yenidən həbs edilməsini nəzərdə tutmuruq. Bu adam cinayətkardır və Azərbaycan məhkəmələrində mühakimə olunmalıdır. Lakin indi Ermənistandan onun Azərbaycana ekstradisiyası haqqında danışmağın yeri yoxdur. Bununla belə, Ermənistanın ikinci prezidentini müdafiə etmək üçün onun qulbeçələri Azərbaycan faktorundan maksimum istifadə etməyə çalışırlar.

Belə ki, faktiki olaraq, R.Koçaryanın Azərbaycanda törətdiyi cinayətlərin müxtəlif fraqmentlərini qəhrəmanlıq donunda təqdim edirlər. Aydın olur ki, hansı erməni günahsız insanlara qarşı daha çox cinayət işlədibsə, onlar Ermənistanın milli qəhrəmanlarıdırlar. Bunun beynəlxalq hüquqa nə dərəcədə uyğun olduğunu hüquqşünaslar daha yaxşı bilərlər. Ancaq mənəvi baxımdan rəzalət olduğunu, orta əsr təfəkkürünün qalıqlarının müasir Ermənistan siyasi elitasının siyasi şüurunun başlıca qatını təşkil etdiyini deyə bilərik. Daha düşündürücüsü odur ki, bu kimi faktorlardan Ermənistan-Rusiya münasibətlərinin vacibliyini sadə ermənilərə çatdırmaq üçün istifadə edirlər. Belə çıxır ki, R.Koçaryan kimilərin cinayətləri Moskvadan idarə edilirmiş və məhz bəzi xidmətlərinə görə indi bu erməni siyasətçini Moskvada müəyyən dairələr müdafiə edir. Əks halda, R.Koçaryanın Dağlıq Qarabağda etdiyi cinayətləri həm "milli qəhrəmanlıq", həm də "Rusiya-Ermənistan dostluğunun əsas elementlərindən biri" kimi təqdim etməyin məntiqi izahı varmı?

Hər bir halda, aydın görünür ki, Ermənistanda heç zaman insanlara uyğun gəlmədikləri və hüquqa əsaslanan münasibət olmayıb. N.Paşinyan tərəfdarları deyirlər ki, R.Koçaryan konstitusiyanı pozub. Əks tərəf isə sual edir ki, "bir halda ki, R.Koçaryan seçkini udmuşdu, konstitusiyanı niyə pozmalı idi?". Bundan başqa, həmin proseslərdə N.Paşinyan küçədə imiş və həbs edilib. Lakin 7 il əvəzinə 5 ilə həbsdən çıxıb, sonra bir il müddətində deputat olub və nəhayət, indi baş nazirdir. Kimsə tərəfindən siyasi qabiliyyəti tanınmayan, idarəçilik təcrübəsi olmayan birisinin bu dərəcədə sürətlə hakimiyyətə yiyələnməsi hansı məsələlərdən xəbər verir?

Dolaşıqlıq: rəsmi İrəvanın qeyri-adekvat addımları

Bütün bunların fonunda ekspertlər daha iki məqama diqqət yetirirlər. Birincisi, Moskva N.Paşinyanın hərəkətlərinə hələlik təmkinlə yanaşır. Hətta onunla yeni silah və hərbi texnika verilməsi ilə bağlı müqavilə də imzalayır. İkincisi, Ermənistandan olan deputatlar AŞPA-da açıqca antirusiya mövqeyi tuturlar. Rusiya ilə bağlı məsələnin müzakirəsi zamanı erməni deputatlar qeyri-müəyyən mövqe tutublar. Onlardan biri hətta "düymələri səhv saldığı"nı deyib. Yəni bu, o qədər primitiv bəhanədir ki, şərhə ehtiyac yoxdur. Lakin Kreml özünü bu kimi hallara laqeyd kimi göstərir. Rusiya sanki N.Paşinyanı heç "görmür". Onun nə etməsindən asılı olmayaraq, Moskva Ermənistanı himayə edir.

Bir sıra ekspertlər bununla bağlı deyirlər ki, Moskva, sadəcə, N.Paşinyanın özünü tam nüfuzdan salmasını gözləyirlər. Rusiya hesab edir ki, yeni erməni hakimiyyətinin populist mövqeyinə gec və ya tez Ermənistan cəmiyyətində reaksiya olacaq. O zaman Moskva hərəkətə keçə bilər. Bu proqnozun nə dərəcədə reallığa uyğun olduğunu demək çətindir. Lakin İrəvanda Rusiyaya qarşı müəyyən çağırışların edilməsi də ekspertlərdə maraq doğurur.

N.Paşinyanın komandasında Rusiyadan Ermənistan iqtisadiyyatının "açarı"nın alınmasından danışırlar. Onlar deyirlər ki, indi Ermənistan iqtisadi sistemi, faktiki olaraq, Rusiyanın əlindədir. Bunu KİV daim yazırdı, ancaq Ermənistan hakimiyyəti və ona yaxın KİV-lər hansısa "möhtəşəm iqtisadi layihələr"dən bəhs edir, "Paşinyanın böyük müstəqil layihələrə imza atmasından" danışırdılar. Artıq özləri də açıq etiraf edirlər ki, Ermənistanın real iqtisadi addımları Kremldə müəyyən olunur. N.Paşinyan aciz bir fiqurdur.

Bütün bunlardan geosiyasi nəticələr çıxarmaq olar. Hər şeydən öncə, deyilməlidir ki, Ermənistanın xarici siyasəti tam dolaşığa düşüb. Rəsmi İrəvan sözün həqiqi mənasında nə edəcəyini bilmir. Hələlik sırf şovinist və radikal çağırışlardan başqa bir şey danışa bilmirlər. Onun da müəyyən müddəti var. Çünki insanlar real nəticə görməyəndə, ən çılğın fikri belə qəbul etmirlər.

Verilən vədlərə baxmayaraq, Ermənistan Azərbaycanla münasibətlərdə hər hansı bir irəliləyiş əldə etməyincə, bunun mənfi təsiri mütləq olacaq. Belə bir vəziyyətdə nə qədər radikal fikir səslənsə də, cəmiyyət inanmayacaq. O halda Ermənistanda sosial partlayış qaçılmaz olacaq.

Bununla yanaşı, Ermənistanın Rusiya və İranla münasibətlərində ziddiyyətlərin artması ölkədə siyasi böhranı dərinləşdirir. Belə informasiyalar yayılır ki, Amerika Ermənistanın İranla sərhədlərinə nəzarətə can atır. O cümlədən, Azərbaycanın işğal edilmiş bölgələrinin olduğu hissəyə göz dikilib. Bu məkandan İrana qarşı fəaliyyət üçün istifadə oluna bilər. Guya Rusiyanın da buna qarşılıq planları var. Moskva Ankara və Bakı ilə əlaqələri gücləndirir.

Ermənistan mediasının bu cür şayiələr yayması, ilk növbədə, daxildə insanların diqqətini əsas problemlərdən yayındırmaq üçündür. Mifik düşmən obrazı yaradıb, başlıca vəzifənin onunla mübarizə aparmaqdan ibarət olduğunu aşılamağa çalışırlar. Lakin reallıqda Rusiya və İranla münasibətlərdə ziddiyyətlər daha da artıb. Bunun da əsas səbəbi Ermənistanın son vaxtlar özünü Qərbin "dostu" kimi göstərməyə çalışması ilə bağlıdır. Deməli, Ermənistan hələ də regionun əsas risk qaynağıdır. Bunun belə davam etməsi ciddi fəsadlar verə bilər.

Beləliklə, Ermənistanın xarici siyasəti özünün növbəti qeyri-müəyyənlik mərhələsinə qədəm qoyub. Onun qonşu dövlətlərlə münasibətləri daha gərgin səviyyəyə yüksəlməkdədir. Faktiki olaraq, heç bir region dövlətinin Ermənistanla normal münasibəti yoxdur. Bunun uzun müddət davam edəcəyinə ümid bəsləmək sadəlövhlük olardı.

Newtimes.az

"Kitab oxuyan" nəsildən "rəqəmsal" nəslə doğru...



Babalarımızın internetsiz mühitdə necə yaşadıqlarını təsəvvür etmək nə qədər çətindirsə, bugünkü gəncliyin də həyatını internetsiz təsəvvür etmək bir o qədər çətindir. Məsələn, 1960-1970-ci illərdə doğulanları saatlarla kitabxanalarda növbə gözləyən və "kitab oxuyan" nəsil kimi xarakterizə etmək olar. 1980-ci illərdə yaşayanlar isə az qala hər gün yeni bir kəşfin tapıldığını müşahidə edirdilər. Bu baxımdan, 1990-cı ildən sonra doğulmuş nəsli "rəqəmsal" nəsil adlandırmaq olar. Çünki bu nəsillə rəqəmsal texnologiyaların sürətli inkişafının formalaşması eyni vaxta təsadüf edir. Statistikaya müraciət etsək görərik ki, 2000-ci ildə dünyadakı internet istifadəçilərinin sayı 360 milyon nəfər olsa da, 2012-ci ilin statistikasına görə internet istifadəçilərinin sayı 2 milyard 267 milyon nəfərə, hər dəqiqədə göndərilən "e-mail" sayı 204 milyon ədədə çatmışdır. Bununla yanaşı, qeyd etmək olar ki, 2006-cı ildə formalaşmış "Tvitter"dən 2012-ci ildə yazılmış "tvit"lərin sayı 100 milyon ədəd olmuşdur. Bu statistika internet haqqında fikirlərimizi formalaşdırmaqda bizə kömək etsə də, bəzi suallara cavab axtarmaq ehtiyacı da formalaşdırır. "İnternet həyatımızı asanlaşdıran əvəzolunmaz vasitədir, yoxsa qlobal informasiya yığını?", "Sosial medianın faydaları və zərərləri hansılardır?", "Sosial mediada hüquqi və əxlaqi normaların, milli dəyərlərin nəzarətdə saxlanılmasına ehtiyac varmı?" və s. Bu mənada qarşıya çıxan əsas sualları cavablandırmaq üçün müəyyən təhlillərə ehtiyac var.

Sosial şəbəkələr və yadlaşan qohumluq əlaqələri

Elektron ünsiyyət nə qədər rahat və ucuz olsa da, ünsiyyətin bu forması canlı ünsiyyəti hec cür əvəz edə bilmir. Bəzən eyni qəsəbədə, eyni şəhərdə, eyni kənddə yaşayan gənclər qohumlarını birbaşa ziyarət etməkdənsə, sosial şəbəkələr vasitəsilə "ziyarət etməyə" üstünlük verirlər. Nəticədə, cəmiyyətimizdə əvvəlki illərdə mövcud olan "ailə dostu" anlayışına az-az rast gəlinir.

Texnologiyanın uşaqlara təsiri

Uşaqların internetin imkanlarından istifadə etməsi müəyyən normalar çərçivəsində olmalıdır. İnternetdən, sosial şəbəkələrdən, kompyuter oyunlarından nəzarətsiz istifadə etmək uşaqların tərbiyəsində, onlarda şəxsiyyətin formalaşmasında arzuolunmaz nəticələrə gətirib çıxara bilər. Bu baxımdan etibarlı internet uşaqlar və gənclər üçün əhəmiyyətlidir.

Uşaqlarda özünü ifadə etmək bacarığının formalaşması uşaqların sosiallaşmasından, kütləvi uşaq oyunlarından, uşaqların fiziki sağlamlığından asılıdır. Sosiallaşma, canlı ünsiyyət, dost seçmək, yaxşını və pisi ayırmaq və s. kimi xüsusiyyətlərin formalaşması uşaqların öz həmyaşıdları ilə birbaşa münasibətlərinin formalaşmasından asılıdır. Bu birbaşa münasibətlər sayəsində onlarda özünəinam, cəsarət, ümid, zəhmətkeşlik, liderlik, komanda ilə işləmək bacarığının ilkin rüşeymləri formalaşır. Həmçinin bu münasibətlər uşaqların ünsiyyətə meyilli, yeni mühitə adaptasiya olmaqda çətinlik çəkməyən, iradəcə dözümlü vətəndaşlara çevrilməsinə səbəb olur. Texnoloji yeniliklərdən, sosial şəbəkələrdən intensiv istifadə edən, canlı ünsiyyətə üstünlük verməyən uşaqlarda isə yuxarıda sadalanan bu cəhətlər zəif formalaşmaqla yanaşı, onlarda müəyyən depressiya hallarına da rast gəlmək mümkündür.

Qeyd etmək lazımdır ki, uşaqlarda internetdən asılılığın formalaşması müxtəlif fiziki problemlərin də (məsələn, depressiya, radioaktivlik normasının çoxalması, göz və onurğa xəstəlikləri və s. kimi) meydana gəlməsinə səbəb olur. Həmişə qayğı və nəvazişə ehtiyacı olan uşaqları diqqət mərkəzində saxlamaq onların xeyirli övlad, layiqli vətəndaş olmalarına çalışmaq hər bir valideynin müqəddəs borcudur. Bu mənada yemək reseptlərinə internetdən baxan analar, yarımçıq qalmış işlərini evdə internetlə davam etdirən atalar öz övladlarına sevgi, şəfqət, mərhəmət kimi ülvi hissləri aşılamağı da unutmamalıdırlar. Valideynlər bütün varlıqları ilə maddi və mənəvi olaraq uşaqlarının yanında olmalı, onlarla vaxt keçirməli, onlara xüsusi vaxt ayırmalıdırlar.

✍ **Röya Rasimqızı, *"İki sahil"***

Sevinc Osmanqızı, nə vaxtdan agentlik müxalifətçilik sayılır?

Vəli İlyasov

"Mən müxalifətəm"-deyib meydana atılmaq, özünü həyasızlığa qoyub dövlətdən nəsə qoparmağa çalışmaq, bu da baş tutmayanda üz döndərib naxələflik etmək müxalifətçilik deyil. Müxalif mövqedə olanın dərin ağlı, güclü siyasəti, bacarığı, idarəçilik qabiliyyəti, real platforması, məramı, inkişaf konsepsiyası, xalq arasında böyük nüfuzu olmalıdır. Bu baxımdan Azərbaycandakı dağıdıcı müxalifət nə gündədir? Dağıdıcıların düşərgəsinə baxanda bu keyfiyyətlərə malik bir lider görünürmü? Yox, çünki o, yoxdur. Görünənlər isə Azərbaycanın xarici düşmənlərinə qulluq göstərənlər və öz şəxsi ambisiyalarını reallaşdırmağa can atan pulpərəstlər və mənsəbpərəstlərdir. Ən pisi də odur ki, bu adamlar xarici dairələrin əlaltısı kimi onlara verilən ssenari üzrə öz xalqına hər cür xəyanət etməyə hazırdırlar. Təki pul olsun.

Onların hamısının "xasiyyətnamələri" hamıya məlumdur. Ancaq biri haqqında ayrıca danışacağıq.

Jurnalist Sevinc Osmanqızı heç özü də bilmir ki, bu cəmiyyətdən nə istəyir, niyə öz torpağından cəlayi-vətən olub? Bəyəm onun Azərbaycanda nədənsə əskikliyi vardı? Tanınmış bir jurnalistin-dövlət adamının qızını okeanın o tayına aparıb çıxaran nədir? Cavabı bircə kəlmə ilə ifadə etmək olar: iddia. İddiasına əsir olan Sevinc Osmanqızı hətta Qarabağ torpağı uğrunda qurban getmiş atasının ruhuna xəyanət etməyi belə özünə rəva görür. Nə üçün okeanın o tayında oturub doğulub boya-başa çatdığı, suyunu içib, çörəyini yediyi vətəninə iftiralar yağdırır? Onun barəsində mətbuata sızdırılan məlumatlarda bildirilir ki, xarici xüsusi xidmət orqanları ilə əməkdaşlıq edir. Təbii ki, superhəyat arzusu ilə ölkəsini tərk edən Sevinc Osmanqızı Azərbaycana düşmən olan dairələrə ucuz qulluq göstərməz. Ona görə də belə pulların müqabilində öz xalqına hər cür yarlıq yapışdırmaqdadır. Guya Azərbaycanda demokratiya yoxdur, insan haqları pozulur, insanlar əqidəsinə görə təqib olunur, "siyasi məhbuslar" və s. kimi cəfəngiyatlar söyləməkdən heç utanmır da. Məqsəd ona verilən tapşırığa uyğun olaraq vətəndaşlarımızı iqtidara qarşı itaətsizlik göstərməyə sövq etməkdir.

İş o yerə çatıb ki, dövlət başçısının jurnalistlərə mənzil hədiyyə etməsini belə lələləməyə, onu qara rəngə boyamağa çalışıb. Dövlət başçısının mətbuatda çalışan jurnalistlərə mənzil bağışlamasında pis nə var ki? Bunu yalnız alqışlamaq lazımdır. Ancaq Sevinc Osmanqızı alqışlamır, bu xeyirxah addıma şəbədə qoşmağa çalışır. Özündən uydurur ki, guya Prezident jurnalistlərə mənzil verməklə onları öz tərəfinə çəkir. Ancaq unudur ki, mənzil verilənlərin bir çoxu müxalifət mətbuatında çalışanlardır. Bundan başqa, müxalifətçi jurnalistlər dövlətin orden və medalları ilə, fəxri adlarla və s. təltif olunurlar.

Təəssüf ki, Sevinc Osmanqızı həmkarımızdır. Ancaq bu o demək deyil ki, bizim əvəzimizdən danışsın və ya bizə vəkillik eləsin. Biz öz Vətənimizdə yaşamağı və xalqımıza xidmət göstərməyi ən şərəfli iş hesab edirik. Sevinc Osmanqızı kimilər bizi öz yolumuzdan sapdıra bilməz. Əqidəsini, xalqının mənafeyini pula satan Sevinc Osmanqızı qoy öz halını düşünsün, gələcəyini göz önünə gətirsin. Azərbaycana hansı üzlə qayıdacağını, soydaşlarının arasına necə çıxacağını fikirləşsin. Təbii ki, o, nankorluğuna görə nə vaxtsa peşman olacaq, ancaq "sonrakı peşmançılıq fayda verməz- deyiblər. Hazırda isə ona-buna lakeylik etməklə və bununla da cədd-əqrəbasına hörmətsizlik gətirməklə gününü keçirir.

Paradoks:

qaniçən Ermənistan və insan hüquqlarının qorunması

DİKTATURA REJİMİ İLƏ İDARƏ OLUNAN ERMƏNİSTANIN BMT-NİN İNSAN HÜQUQLARI ŞURASINA QƏBULU İLƏ BAĞLI İSTƏYİ DEMOKRATİK DƏYƏRLƏRƏ ZİDDİR

Ermənistanın baş naziri Nikol Paşinyanın "köhnə hamam, köhnə tas" siyasətindən təngə gələn insanlar yenə küçələrə axışırlar. Meydan, küçə hərəkatı ilə hakimiyyətə sahiblənən, səsucaldıcı vasitəsilə verdiyi vədləri artıq pıçıltı ilə belə səsləndirməkdən ehtiyat edən, erməni xalqına verdiyi vədlərin yerinə yetirilməsinin qeyri-mümkün olduğunu yəqinləşdirən Paşinyan özünə imic qazanmaq üçün korrupsioner hökumətdən miras qalan mənimsəmə, rüşvətxorluq hallarını aşkarlamaqla hakimiyyətdə yerini möhkəmlətmək üçün vaxt qazanır. Amma göründüyü kimi istəyinə nail ola bilmir. Xarici ölkələrə səfərləri zamanı Qərbin yağlı tikəsinin həsrətində olsa da, nəsibi qapı arxası olan baş nazirin parlamentli dövlət qur(a)maq səyi də istənilən nəticəni vermədi. Zaman-zaman " Rusiya, ya Qərb" dilemması arasında etdiyi gedişin də işə yaramadığını görən, əlində investisiya yönümlü paketi, yaxud birgə əməkdaşlıq üçün fəaliyyət proqramı olmayan Paşinyanın heç əvvəlindən iqtisadi inkişaf konsepsiyası belə olmayıb. "Ermənistanın gələcəyi naminə çalışdığı" görüntüsü yaratmaq istəyən Paşinyanın boşuna vaxt sərf etdiyini artıq hamı bilir. Rusiyanın soyuq münasibətindən donan, bütün hallarda öz mənafeyini düşünən Avropa dövlətləri rəsmilərinin sərt rəftarından çəkinən Paşinyanın özü üçün "mülayim iqtisadi iqlimə malik" məkan axtarmaq cəhdi baş tutmur. Hakimiyyətə gələn kimi qarşıdurma yaratmaqda mahir olduğunu KTMT-də törətdiyi münaqişə ilə bildirən Paşinyana bu qurumda da etibar və etimad demək olar ki, tükənib. " Qarabağ klanı"na qarşı yaratdığı qarşıdurmadan başqa yaddaqalan elə bir fəaliyyətinin olmadığını etiraf edən, Azərbaycana məxsus mənəvi dəyərləri oğurlamaqla özününküləşdirən ermənilər ölkələrini "özününküləşdirib", müstəqil dövlət kimi tanıda bilmirlər. Davos İqtisadi Forumunda, başqa görüşlərdə iştirak edən dövlət və hökumət başçılarının baş nazirə biganə münasibəti də təsdiqləyir ki, işğalçılıq siyasətini davam etdirən Ermənistanın Qərb sərmayələrini cəlb etmək səyi ancaq xəyal ola bilər.

Ən əsası isə ABŞ rəsmilərinin İrəvana səfərindən sonra Ermənistana sərt üzünü göstərən Rusiya forpostuna verdiyi qazın qiymətini qaldırmaqla kifayətlənməyəcək, başqa cəza tədbirləri də görəcək.

"Mənim dediklərimi indi erməni xalqı deyir. Mən bir

neçə dəfə ən mötəbər kürsülərdən, BMT kürsüsündən Ermənistanın əvvəlki hakimiyyətini ittiham etmişdim. Demişdim ki, bu, kriminal xunta rejimidir, indi bunu erməni xalqı deyir. Demişdim ki, bu, korrupsiyaya qurşanmış oğru rejimidir, indi bunu erməni xalqı deyir. Demişdim ki, bu rejim öz xalqının qanını içir. Bu gün biabırcasına hakimiyyətdən qovulmuş Sarkisyan rejimi, əslində, Ermənistanın dövlətçiliyinin iflasıdır. Çünki əgər müstəqilliyinin 26 ilində, onun 20 ili bu hakimiyyət altında keçmişdisə, onda bu dövlətin hansı müsbət cəhətləri var?! Ermənistan uğursuz dövlətdir. Ermənistan dövlətçiliyi iflasa uğrayıb" söyləyən cənab İlham Əliyevin reallığa əsaslanan bu sözlərini indi Paşinyan hakimiyyətinə etirazlarını meydanlara toplaşmaqla bildirən ermənilər təkrarlayır, illərdən bəri üzləşdikləri çətinliklərin hesabını tələb edirlər. Qısası, kabab iyinə hakimiyyətə gələn Paşinyan uzunqulaq dağlanmasının pis qoxusunu çəkməyə məcburdur.

Yəni baş nazirin qısa müddətdə reytinqinin aşağı düşməsini təkcə etiraz aksiyaları təsdiqləmir. ABŞ-ın Beynəlxalq Respublika İnstitutu Ermənistanda yeni sorğu keçirib. Nəticələrə görə əhali prezident Armen Sarkisyana baş nazirdən daha çox etimad göstərib.

Belə ki, sorğuda iştirak edən respondentlərin 56 faizi Nikol Paşinyanı, 61 faizi isə prezident Armen Sarkisyanı dəstəkləyib.

İqtisadiyyatı hələ də böhran içərisində qalan, ölkəsinin sərhədlərini Rusiyanın hərbçiləri qoruyan Paşinyan üçün "Vətən sərhəddən başlanır" sözlərinin də heç bir əhəmiyyəti yoxdur. Çünki Vətən o zaman müqəddəs olur ki, onu qoruyan bu torpağın yetirmələri olsun.

Arabir eşidilən, heç bir beynəlxalq hüquqa əsaslanmayan bəyanatları ilə əhalini sakitləşdirməyə çalışan işğalçı, oyuncaq hakimiyyətin məmurlarının sayıqlamaları da aksiyaların dayandırılmasına kömək etmir. Kriminal, korrupsioner, qaniçən, yalançı hakimiyyətin sabiq prezidentləri Sarkisyanın, Koçaryanın, oğru generalların tam iflasa uğratdığı Ermənistanın bu vəziyyətə düşməsinin səbəbinin işğalçılıq siyasəti olduğunu hələ də anlamayan, qlobal enerji və nəqliyyat layihələrindən kənarda qalan Ermənistanın gələcək üçün perspektivi yoxdur. Hər il 50-60 min nəfərin tərk etdiyi Ermənistanın demoqrafik vəziyyəti də acınacaqlıdır

Aprel döyüşlərinə, Günnüt əməliyyatına, Lələtəpədə dalğalanan üçrəngli bayrağımıza özlərinin sonu kimi baxan ermənilər Silahlı Qüvvələrimizin qüdrəti qarşısında aciz olduqlarını hər an hiss edirlər. Uzun illər ərzində təmas xəttində qurduqları "möhkəm istehkam"la "fəxr etdiklərini" bildirən ermənilərin bu ordoları ilə bağlı "qürurları" da fiaskoya uğradı. Sadə ermənilər boş vədlərlə aldadaraq, zəbt etdikləri Azərbaycan torpaqlarında yerləşdirməklə işğala haqq qazandırmağa çalışan Ermənistan rəsmiləri bir həqiqəti unudurlar ki, separatçı rejimin keçirdiyi seçkilər, referendumu heç bir dövlət, beynəlxalq təşkilat tanımır. Şərq Tərəfdaşlığına üzv ölkələrin sammitlərində dövlətlərin suverenliyinin, ərazi bütövlüyünün, müstəqilliyinin birmənalı şəkildə dəstəkləməsi o deməkdir ki, işğalçı Ermənistan istəsə də, istəməsə də Azərbaycan torpaqlarını tərk etməlidir. Azərbaycan heç vaxt ərazisində ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcək. Azərbaycan xalqı tarixi torpaqlarımızı heç vaxt unutmur və unutmayacaq. Nəinki Dağlıq Qarabağ, İrəvan xanlığı, Zəngəzur, Göyçə mahalları da Azərbaycanın tarixi ərazilərdir. Ermənistanın işğalçılıq siyasətindən səfil həyatı yaşayan, bu müharibənin dayandırılmasını istəyən erməni xalqının əksinə olaraq kənar qüvvələr tərəfindən idarə olunan, siyasi savadsızlığı bir yana, tarixdən də piyada olan, havadarlarının girovuna, qurbanına çevrilən Paşinyan hələ də bunu anlamaq istəmir." Çox təəssüf ki, hakimiyyətə gəlmək üçün xalqa xoş gün vəd edən Paşinyan da ölkəni tərk edən Sarkisyan, Koçaryan kimi düşünür. Artıq korrupsioner dövlətin iflasa uğradığını görən, Eçmiədzin kilsəsinin xalqı məhvə aparan çağırışlarından yorulduğunu bildirən xalq daha güclü aksiyalara başlayıb. Din xadimi olsalar da, insanlara mərhəmət, səbr, mehriban, dostluq öyrətmək əvəzinə onları qana sürükləyən keşişlərə qarşı etirazlarını bildirən ermənilərin inanıb, arxasınca gedəcəkləri rəhbərləri olmadığı kimi , gələcəyə ümidləri də tükənib. Yəni daşnak ideologiyasının əsas prinsipləri olan qaniçənliyi, vəhşiliyi, qəddarlığı, faşizmə sadiqliyi genlərində daşıyan ermənilərin məhvə məhkumluqdan başqa yolları yoxdur. Ayıbına kor olmayan Paşinyanın daha bir sərsəmləməsi özlərini "demokratik ölkə" hesab etməsidir. Müstəqil daxili və xarici siyasəti olmayan Ermənistanın "baş diplomatı" Z. Mnatsakanyanın BMT-nin insan hüquqları şurasındakı çıxışında ölkələrində yaranan nizamsızlığı demokratiya hesab etməsi köpəyin aya hürməsinə bənzəyir. Əslində diktaturanın hökm sürdüyü işğalçı ölkədə etnik təmizləmə siyasəti, vandalizm, separatçılıq, qaniçənlik adi haldır. Bu baxımdan iki əsrdə milyonlarla azərbaycanlını qətlə yetirən, Dağlıq Qarabağ müharibəsi zamanı 20 mindən artıq soydaşımızı öldürən bir dövlətin BMT-nin insan hüquqları şurasına seçilmək istəkləri qəbuledilməzdir və bu təsisatın təməl prinsiplərinə zidd olmaqla demokratik dəyərlərin, insan hüquqlarının tapdanılması deməkdir. Buna görə də beynəlxalq ictimaiyyət işğalçı, terroru dövlət səviyyəsində dəstəkləyən bir ölkənin bu istəyinin baş tutmasına yol verməməlidir. Qəbul etdiyi dörd qətnamədə Azərbaycanın ərazi bütövlüyünü tanıyan, Ermənistanın işğalçılıq siyasəti nəticəsində ölkəmizə vurulan maddi-mənəvi ziyanları təsdiqləyən, soydaşlarımızın qətlə yetirilməsini pisləyən BMT rəsmiləri bu məsələdə daha diqqətli olmalı, qəbul etdikləri qətnamələrinin əksinə olan yanlışlığa yol verilməməlidir. Diktatura rejimi ilə idarə olunan Ermənistanın özündə belə insan hüquqlarının pozulduğunu təsdiqləyən amillərin olduğu halda bu dövlətin "beynəlxalq səviyyədə insan hüquqlarının qorunmasına fayda verəcəyi" bağça uşaqlarının oxuduqları bir şeirə bənzəyir:

İlan dedi, qurbağa,
Nə salmısan bağ-bağa,
Mən ki, səni yemirəm.
Diri-diri uduram.

✍ **Xuraman İsmayılqızı,**
"İki sahil"

SOCAR-ın TENDERLƏRİ

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

Kompleks Qazma İşləri Tresti

Şiber siyirtmələrinə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (26057-19) elan edir.

I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:

* Müsabiqədə iştirak haqqında müraciət;

* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);

* Müsabiqə təklifinin təminatı;

* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 31.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır. Göstərilmiş tarixdən gec edilmiş ödəniş və müraciətə baxılmayacaqdır.

Tələb olunan sənədlərin elektron surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 07.08.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

III. Müsabiqə təklifinin təminatı:

Müsabiqə təklifinin təminatı, bank qarantiyası formasında iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğindən az olmamaq şərtilə, 07.08.2019-cu il, Bakı vaxtı ilə saat: 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Müvafiq təminatı təqdim edilməyən təklif rədd ediləcəkdir.

Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.

Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə sorğu verməlidir.

IV. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:

* Müsabiqənin əsas şərtlər toplusunu əldə etmək istəyənlər əlaqələndirici şəxsə iştirak haqqının ödənilməsi barədə bank sənədini və müraciət məktubunu (elektron və ya çap) təqdim etməklə əsas şərtlər toplusunu (elektron və ya çap) Azərbaycan, ingilis və ya rus dilində əldə edə bilərlər.

* Qeyd olunmuş sənədlər elanın I paraqrafında göstərilmiş tarixədək iş günü ərazində saat 09:00-dan 17:30-a kimi təqdim və qəbul edilə bilər.

* İştirak haqqı hər Lot üçün 177 manat (ƏDV ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyutadır və Satınalan təşkilatın aşağıdakı bank hesabına ödənilməlidir:

Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

V. Təminatlar:

* Müsabiqə təklifinin təminatı iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğindən az olmamaq şərtilə təminat tələb olunur.

* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunacaqdır.

VI. Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 50%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.

VII. Müqavilənin icra müddəti:

* Satınalma müqaviləsinin 90 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

VIII. Satınalan təşkilatın ünvanı:

AZ1033, Bakı şəhəri, Nərimanov rayonu, Ağa Nemətula küçəsi, 105.
SOCAR, Kompleks Qazma İşləri Tresti
Əlaqələndirici şəxs: Hüseynov Anar.
Maddi-texniki təchizat və marketinq şöbəsi, şöbə rəisinin müavini
Telefon: (+99 412) 521-31-59
Faks: (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

IX. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

X. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:

Zərflərin açılışı 07.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VIII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

XI. Müsabiqənin nəticəsi haqqında məlumat:

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:

http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

Metanol Zavodu

reforminq katalizatorların satın alınması məqsədi ilə açıq satınalma müsabiqəsi (37024-AM19) elan edir.

I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);

* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);

* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 01.08.2019-cu il, Bakı vaxtı ilə saat 17:00-a qədər Azərbaycan dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 05.08.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, ingilis və ya rus dilində əldə etmək istəyənlər 826 manat (ƏDV ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 08:30-dan 16:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Şirkətin adı: Azərbaycan Dövlət Neft Şirkətinin Metanol Zavodu
VÖEN: 1101883811
Hesab nömrəsi : AZ16PAHA38040AZNHC0100095120
Muxbir hesab: AZ82NABZ01350100000000071944
Bank Məlumatları:
Kod: 505141
VÖEN: 1700767721
S.W.I.F.T BİK: PAHAAZ22
Hüquqi ünvan: AZ1080, BAKI ŞƏHƏRİ QARADAĞ RAYONU,
SALYAN ŞOSSESİ, ev 22, 22-Cİ KM*

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

IV. Təminatlar:

Müsabiqə təklifinin təminatı iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 3 (üç) %-i məbləğində təminat tələb olunur.

Müsabiqə təklifinin təminatı:

Müsabiqə təklifinin təminatı, bank qarantiyası formasında iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 3 (üç) %-i məbləğində, 31.07.2019-ci il, Bakı vaxtı ilə saat 11:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Müvafiq təminatı təqdim edilməyən təklif rədd ediləcəkdir.

Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.

Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə sorğu verməlidir.

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunacaqdır

V. Müqavilənin icra müddəti:

* Satınalma müqaviləsini 180 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

VI. Satınalan təşkilatın ünvanı:

Bakı şəhəri, Qaradağ rayonu, Salyan şosesi ev 22,22-ci km
SOCAR, Metanol zavodu
Əlaqələndirici şəxs: Qasımov İsa
Maddi-texniki təchizat və satınalmalar şöbəsi, şöbə böyük mühəndisi
Telefon: (+99 412) 521-00-00 (37104)
isa.v.qasimov@socar.az

VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:

www.socar.az

VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:

Zərflərin açılışı 05.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

IX. Müsabiqənin nəticəsi haqqında məlumat:

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:

http://www.socar.az/

Metanol Zavodunun Satınalmalar qrupu

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

iki sahil

Son səhifə

www.ikisahil.az / www.ikisahil.tv

16

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 120 (7375) / Şənbə, 6 iyul 2019-cu il

Yayın ən ciddi problemi: qida zəhərlənmələri

Mövsümün gəlişi ilə qida zəhərlənməsinin daha tez-tez müşahidə olunması danılmaz bir faktdır. Bu cür zəhərlənmənin "toruna " düşən isə əsasən azyaşlılar, immun sistemi zəif olan insanlar olur. Səbəbindən asılı olaraq qida zəhərlənmələrinin fəsadları da özünü müxtəlif şəkildə büruzə verir.

Nə zaman qida zəhərlənməsi baş verir?

Bu tipli zəhərlənmələrə bakteriyalar, viruslar və parazitlər kimi ziyanlı mikroorqanizmlərin qidaya bulaşması nəticəsində həmin qidanın istifadəsi zamanı baş verir. Yay aylarında daha tez-tez rast gəlinən qida zəhərlənməsi əsasən ishal, ürək bulanması, qusma və mədə ağrıları ilə özünü göstərir. Havanın istiliyi çox olduqda müəyyən patogen mikrobların da inkişafının çoxalma sürəti artır. Buna görə də yay aylarında qida zəhərlənmələrinin sayı çoxalır. Zəhərlənmənin əsas səbəbləri qida məhsullarının düzgün saxlanılmaması ilə bağlıdır. Soyuq zəncirin pozulması, istehsal tarixi ötmüş malların qəbulu, dondurma, müəyyən ət məhsulları, məsələn, dönər kimi qidaların yay zamanı saxlanılma müddəti çox az olur. Eyni zamanda, məhsulların düzgün şəraitdə saxlanılmaması qida zəhərlənmələrinə yol açır. Yay aylarında qarpızdan zəhərlənmələr çox aktuallıq kəsb edir. Qida zəhərlənməsi zamanı xəstənin üzünün və bədəninin dərisi solğunlaşır, dili ağ ərplə örtülür. Zəhərlənmə əsasən xarab qidanın qəbulundan 2-24 saat sonra baş verir. İkin əlamətləri isə təkrarlanan qusma, əziyyətli ürəkbulanma, güclü ishal. Xəstəlik 1-3 gün davam edir, əlamətlər yavaş-yavaş azalır. Zəhərlənmədən bir müddət sonra zəiflik, qarında sancılar, köp ola bilər.

Zəhərlənmə zamanı nə etməli?

Həkimə müraciət edənə qədər su qəbul edərək, qusmağa çalışmaq lazımdır. Eyni zamanda, mədə-bağırsaq yuyulmalı, yəni çoxlu miqdarda sodalı, ya marqanisli su içilməlidir. Əgər bu mümkün olmazsa, hər 10 kq bədən çəkisinə 1 tablet olmaqla kömür dərman vasitəsini əzib 1 stəkan suya qatıb içmək lazımdır. Bunu içməklə toksinlərin qana keçməsinin və zəhərlənmənin inkişafının qarşısı alınır. Lakin artıq zəhərlənmə inkişaf edibsə, onu ev şəraitində müalicə etmək məsləhət deyil. Çünki çox pis ağırlaşmalar baş verə bilər. Xəstə şok keçirə bilər. Qida zəhərlənməsi keçirən bir xəstə həkimə müraciət etməzdən öncə bəzi hərəkətləri etməlidir. Qida zəhərlənməsində xəstələrdə ishal və qusmanın nəticəsində su itkisi yaranır, bu mayenin yerinə qoyulması gərəklidir. Bu səbəbdən ən əsas məqsəd maye qəbul etməkdir. Çay içilməsi də mümkündür. Bundan əlavə, bəzi müalicə üsulları da var. Mədənin ilıq, qaynadılmış su və yaxud 2 faizli çay sodası məhlulu ilə yuyulması lazımdır. Orqanizmin rehidratasiyası məqsədilə ev şəraitində məhlul hazırlamaq olar. Bunun üçün bir litr ilıq qaynadılmış suya 1 çay qaşığı xörək duzu, 1 çay qaşığı çay sodası və 2 xörək qaşığı şəkər tozu qatmaq lazımdır. Qəbul edilən mayenin ümumi miqdarı 2-3 litrdən az olmamalıdır. İlk günlərdə qida qəbulu məhdudlaşdırılmalı, asan həzm olunan qidalar az-az, lakin tez-tez yeyilməlidir. Tanımadığınız yerlərdən: küçədə satılan dönər və başqa tezbazar yeməklərdən, günün altında qalan ərzaqlardan, vaxtı keçmiş ərzaqlardan, konservalardan və s. bu kimi ziyanlı qidalardan uzaq durun.

Nə zaman həkimə gedilməlidir?

- 2 gündür qaytarırsınızsa
- 3 gündür ishalsınızsa
- Qanlı qusursunuzsa
- Kriz keçirirsinizsə
- Diliniz dolanırsa
- Əhvalınız dəyişərsə
- Tənəffüsün birdən-birə pozulması və əzələ zəifliyi
- Qan qarışıqlı güclü ishal, yüksək qızdırma
- Uşaqların və hamilə qadınların zəhərlənməsi
- Uzun müddət davam edən sulu ishal və orqanizmin susuzlaşması.

✍ **Yaqut Ağaşahqızı,**
"İki sahil"

Kim daha çox ağlayır?

Almaniya alimləri olduqca maraqlı tədqiqat aparıblar. Tədqiqatçılar daha çox kişilərin, yoxsa qadınların ağladıqlarını müəyyən etməyə çalışıblar. Araşdırmanın nəticələrinə görə, qadınlar ildə orta hesabla 64, kişilər isə 17 dəfə ağlayır.

Almaniyanın Münhen şəhərinin "Ludviq-Maksimilian" Universitetinin göz klinikasında çalışan Elizabet Messmer adlı tədqiqatçı "Der Ophtalmologe" adlı dərgidə apardığı araşdırma ilə bağlı bir sıra maraqlı məlumatlar dərc edib. Araşdırmanın nəticələrinə əsasən, qız və oğlan uşaqlarının 13 yaşına qədər eyni həcmdə ağladıqlarını, daha sonrakı yaşlarda isə kişilərin ildə orta hesabla 6-17, qadınların isə 30-64 dəfə göz yaşı tökdüklərini bildirib.

Açıqlamada qadınların ağlamasının 6 dəqiqə çəkdiyi, kişilərin isə ən azı 4 dəqiqə gözyaşı axıtdıqları söylənilib. Qadınların ağlamasının uzun, dramatik və ürək yaxan olduğu, özlərini ifadə edə bilmədikdə, həll edilməz mürəkkəb problemlər qarşısında, ya da keçmişi xatırladıqları zaman ağladıqları, kişilərin isə daha çox duyğulu və münasibətlər qurarkən bacarıqsızlığa uğradıqları zaman sel kimi göz yaşı axıtdıqları bildirilir.

Bundan savayı, insanların, ağlamağın daxili sakitlik yaratdığı, ağladıqdan sonra özlərini yaxşı hiss etdikləri, göz yaşları ilə birlikdə vücudlarında olan zəhərli maddələrin xaricə axdığı barədə olan inanclarının araşdırma zamanı öz təsdiqini tapmadığı ifadə edilib.

✍ **Röya Rasimqızı, *"İki sahil"***

Britaniyalı balıqçı rekord çəkidə siam karpı ovlayıb

Tailandda britaniyalı balıqçı Con Harvi dünyada ən böyük siam karpını və ya nəhəng şirbit balığını ovlayıb.

AZƏRTAC "Daily Mail" nəşrinə istinadla xəbər verir ki, Con Harvinin ovladığı balığın çəkisi təxminən 105 kiloqram təşkil edib.

Britaniyalı tutduğu balıq ilə dünya rekordunu yeniləyə bilib: buna qədər ovlanan ən böyük siam karpı indikindən 4,5 kiloqram yüngül olub.

Balıqçının sözlərinə görə, siam karpını sudan çıxarmaq üçün ona 1 saat 30 dəqiqə vaxt lazım gəlib. "Balıq demək olar, müqavimət göstərmirdi, problem onun çəkisində idi. Mən səhv etmək istəmirdim və buna görə çox həyəcan keçirirdim", - deyə Con Harvi bildirib.

Ən hündür gənc

ABŞ-ın Miçiqan ştatında yaşayan 22 yaşlı Brok Braunun boyu 240 sm-dir.

Milli.Az bildirir ki, Brok bir neçə il əvvəl dünyanın ən hündür yeniyetməsi ünvanına layiq görülüb.

Brok anadangəlmə genetik xəstəlik sayılan Sotos sindromundan əziyyət çəkir. O, hələ uşaq bağçasına gedəndə boyu artıq 153 sm idi. Hazırda Brok anomal boyuna görə ancaq dərzilərə paltar sifariş edir, onun üçün 250 sm uzunluğu olan çarpayı hazırlanıb.

Diabetdən də əziyyət çəkən gənc yeriməkdə çətinlik çəkir. Amma o öz restoranını açmaq barədə xəyallar qurur. Bu yaxınlarda isə idman mərkəzində işə qəbul edilib.

ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın Kompleks Qazma İşləri Trestinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi Trestin Mexanika, buruq avadanlığının təmiri şöbəsinin rəis müavini İsa Sadiq oğlu Məmmədova, qardaşı

Tərlan Məmmədovun

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

TƏSİSÇİ:

SOCAR

Baş redaktor:
Vüqar RƏHİMZADƏ

Baş redaktorun I müavini:
İsmayıl HACIYEV

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: **530-26-46, 430-87-97**
Baş redaktorun I müavini: **530-26-36**
FAX: **430-87-47**
Mühasibatlıq: **430-87-27**
e-mail: **ikisahil@azdata.net**

Ünvan:
AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzetdə ***"AZƏRTAC", "OLAYLAR", "AzadInform", "TREND", SİA, İnterFAX*** informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb:
06.07.2019-cu il saat 01:00
Qiyməti: **40 qəpik,** *Sayı:* **7991**
İndeks: **0151,** *Sifariş:* **2177**